AZƏRBAYCAN RESPUBLİKASININ

ALİ MƏHKƏMƏSİ

# M Ü N D Ə R İ C A T

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciəti........................................................... 3
Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu........................... 6
2018-ci ildə respublikanın birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində baxılan işlər haqqında ümumi məlumat........................................................................................ 9
Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda icraat......................................... 12
Ali Məhkəmənin kollegiyalarında 2018-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat: .......................................................................................................... 13
Ali Məhkəmənin Mülki kollegiyası............................................................................................ 13
Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası............................................................................ 17
Ali Məhkəmənin Cinayət kollegiyası......................................................................................... 24
Ali Məhkəmənin Hərbi kollegiyası........................................................................................... 27
Ali Məhkəmə Kollegiyalarının hakimləri tərəfindən 2018-ci ildə görülmüş işlər...................... 30
Ali Məhkəmənin Plenumu.......................................................................................................... 36
Ali Məhkəmənin Aparatı və İşlər idarəsi.................................................................................... 39
Ali Məhkəmənin 2018-ci ildə beynəlxalq əlaqələri.................................................................. 47
Ali Məhkəmənin İnternet səhifəsi.............................................................................................. 51
Ali Məhkəmənin bülleteni.......................................................................................................... 53
Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi.................................................................. 54
Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası..................................................................................................................... 55

## Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə M Ü R A C İ Ə T İ

***Hörmətli xanımlar və cənablar!***




Hər ilin yekunu ilə əlaqədar ənənəvi görüşümüzdür. Sizləri salamlamaqdan məmnunluq duyuram. İnanıram ki, bu görüşümüzdə də fikir mübadiləmiz səmərəli olacaq.

2018-ci il bir sıra əlamətdar hadisələrlə yadda qalmışdır. Bu hadisələrin ən önəmlisi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin təntənəli qeyd edilməsi olmuşdur. Məhkəmə-hüquq sisteminin tarixi qədim olsa da, yeni məhkəmə hakimiyyətinin formalaşdırılması dövlət müstəqilliyimizin bəhrəsidir.

Ötən ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məhkəmə sistemi ilə bağlı Sərəncamlarının icrası və Ali Məhkəmənin fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində bir sıra işlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamı ilə Ali Məhkəmədə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron məhkəmə" informasiya sistemi yaradılmış və bu, məhkəmə sisteminin inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur. Azərbaycan Respublikası Prezidenti ötən il – 28 dekabr 2018-ci ildə "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu"nu təsdiq etmişdir. Qanunda elektron məhkəmə sisteminin təmilləşdirilməsini nəzərdə tutan mühüm dəyişikliklər edilmişdir.

“Elektron hökumət”in tərkib hissəsi olan “Elektron məhkəmə” informasiya sistemi məhkəmə hakimiyyətinin və ədalət mühakiməsinin işini səmərəliləşdirən sistemdir və o, vətəndaşın məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edir.

"Elektron məhkəmə" informasiya sisteminin yaradılması və aparılan geniş miqyaslı məhkəmə-hüquq islahatları ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlıq və operativliyin təmin edilməsinə, məhkəməyə müraciət imkanlarının daha da asanlaşmasına, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir.

Ötən il Ali Məhkəmənin fəaliyyətinin hüquqi və informasiya təminatı gücləndirilmiş, Aparatda yeni texnologiyalar tətbiq edilmiş, maddi-texniki baza möhkəmləndirilmişdir. Eyni zamanda əvvəlki illərlə müqayisədə 2018-ci il ərzində vətəndaşların hüquqlarının məhkəmə müdafiəsi genişləndirilmişdir.

Xüsusi qeyd edilməlidir ki, Ali Məhkəmənin 27 əməkdaşı test imtahanlarını müvəffəqiyyətlə verərək 2018-ci ildə hakim seçilmişdir.

Azərbaycan Respublikası İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulduğundan Avropa Məhkəməsinin presedent hüququ bizim hüquq sistemimiz üçün mühüm əhəmiyyət kəsb edir. Hər həftə Ali Məhkəmədə keçirilən seminarda beynəlxalq hüquqi aktlar, xüsusən də “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyasının müddəaları, Avropa Məhkəməsinin presedent hüququ öyrənilir. Hakimlərin və dəvət olunmuş beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə “dəyirmi masa”lar keçirilir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan vətəndaşlarının müraciətinə əsasən ləğv olunan işlərin sayında 2017-ci illə müqayisədə 2018-ci ildə azalma müşahidə olunmuşdur.

Ali Məhkəmənin mülki, cinayət və hərbi kollegiyalarında 2018-ci ildə baxılmış işlər 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə azalmış, inzibati-iqtisadi kollegiyada isə artmışdır. Mülki kollegiyada 6,5 faiz, cinayət kollegiyasında 3,1 faiz, hərbi kollegiyada isə 8,9 faiz azalma, inzibati-iqtisadi kollegiyada 4 faiz artma müşahidə olunmuşdur. Ümumiyyətlə, Ali Məhkəməyə daxil olmuş işlərin sayı 2 faiz artmışdır.

Həm baxılan işlərin, həm də ləğv olunan məhkəmə qərarlarının sayının azalması aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilən qərarların keyfiyyətinin əvvəlki illərə nisbətən yüksək olmasını göstərir.

Ali Məhkəmənin Plenumunun 2018-ci ildə 5 iclası keçirilmiş, 20 qərar çıxarılmışdır.

Ali Məhkəməyə edilən müraciətlərdə artma müşahidə olunmuşdur. Bunu, vətəndaşların məhkəmələrə olan inamının artması kimi qəbul etmək olar.

Bizim məqsədimiz Ədalət mühakiməsini həyata keçirərkən qanunlara dürüst əməl etmək, məhkəmələrin cəmiyyətdə nüfuzunun artmasına, məhkəmələrə inamın yüksəlməsinə nail olmaqdır.

Məhkəmə proseslərinin şəffaf, qərarlarının ədalətli olması əsas şərtdir. Ədalətli qərarlar insanlarda dövlətə inamı artırır.

***Hörmətli jurnalistlər!***

Biz Sizinlə əməkdaşlığımızı davam etdirəcəyik. Sizi Ali Məhkəmə ilə daha sıx əməkdaşlığa dəvət edirəm. Bizim əməkdaşlığımız qanunun aliliyinin təmin olunması, insan hüquq və azadlıqlarının müdafiəsi, sosial ədalətin bərpası naminədir. Bu, çox vacibdir. Sizə yaradıcılıq uğurları arzulayıram.

**Hörmətlə,**

**Ramiz Rzayev**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri**

## Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə mülki, inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə Azərbaycan Respublikasının Bakı şəhərində təşkil edilmiş və onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Ali Məhkəmə Plenumdan və dörd məhkəmə kollegiyasından ibarətdir**.**

“Məhkəmələr və Hakimlər haqqında” Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununa əsasən Ali Məhkəmənin mülki işlər üzrə, iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və hərbi məhkəmələrin işləri üzrə kollegiyalarının” adları dəyişdirilərək müvafiq surətdə “mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya” adlandırılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun “Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyasının tərkibinin təşkili barədə” 11 oktyabr 2013-cü il tarixli qərarına əsasən məhkəmə kollegiyalarında işlərə baxılması üçün hər biri üç hakimdən ibarət olan məhkəmə tərkibləri, o cümlədən:

**Mülki kollegiya** - kollegiya sədrindən və on səkkiz hakimdən ibarət altı məhkəmə tərkibi,

**İnzibati-iqtisadi kollegiya** - kollegiya sədrindən və doqquz hakimdən ibarət üç məhkəmə tərkibi,

**Cinayət kollegiyası** - kollegiya sədrindən və altı hakimdən ibarət iki məhkəmə tərkibi,

**Hərbi kollegiya** - kollegiya sədrindən və üç hakimdən ibarət bir məhkəmə tərkibi müəyyən edilmişdir.

Ali Məhkəmənin hakimlərinin sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir və onlar bu vəzifəyə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin edilir.

Ali Məhkəmə 2018-ci ildə Ali Məhkəmənin sədrindən, məhkəmə kollegiyalarının sədrlərindən və hakimlərindən - cəmi 41 hakimdən ibarət tərkibdə fəaliyyət göstərmişdir.

Ali Məhkəmənin Plenumuna onun bütün hakimləri daxildir.

Ali Məhkəmənin Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Plenum səlahiyyətli sayılır.

Plenum baxılan məsələlər üzrə qərar qəbul edir.

Ali Məhkəmənin Plenumunun qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul edilir. Plenumun üzvləri məhkəmə işləri üzrə səsvermədə bitərəf qala bilməzlər.

Məhkumun vəziyyətini ağırlaşdıran əsaslara görə  məhkəmə qərarları, bəraət hökmü, bəraətverici əsaslarla cinayət işinin icraatına xitam verilməsi haqqında məhkəmə qərarları səsvermədə iştirak edən Plenum üzvlərinin  üçdə iki səs çoxluğu ilə ləğv edilə bilər.

Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir.

# Azərbaycan Respublikasının Ali Məhkəməsi



## 2018-ci ildə respublikanın birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində baxılan işlər haqqında ümumi

## M Ə L U M A T

Azərbaycan Respublikası Ədliyyə Nazirliyindən daxil olmuş məhkəmə statistikasına dair məlumatlardan görünür ki, respublikanın **birinci instansiya (ümumi və inzibati-iqtisadi) məhkəmələri tərəfindən 2018-ci ildə 246.920** işə, o cümlədən **224.584** mülki işlərə, **5.029** iqtisadi mübahisələrə, **17.307** inzibati mübahisələrə dair işlərə baxılmışdır.

2017-cı ildə isə **327.034 mülki, 4.491 iqtisadi və 23.907 inzibati** mübahisələrə - cəmi **355.432** mülki və inzibati-iqtisadi mübahisələrə dair işlərə baxılmışdır.

Müqayisəli təhlildən görünür ki, 2017-ci ilə nisbətən 2018-ci ildə qeyd edilən mübahisələrə dair baxılan işlərin ümumi sayı **30,5% (108.512 iş)azalmış,** o cümlədən **mülki işlərin sayı 31,3 % (102.450 iş) və inzibati işlərin sayı isə 27,6 % (6.600 iş)azalmış, iqtisadi işlərin sayı 12 % (538 iş) artmışdır.**

Məlumatın əhatə etdiyi dövrdə, respublikanın birinci instansiya (ümumi və inzibati-iqtisadi) məhkəmələri tərəfindən qətnamə və qərar (qərardad) çıxarılmaqla cəmi **194.835** işə baxılmışdır. Birinci instansiya məhkəmələrində baxılmış yekun məhkəmə qərarlarından **33.288** apellyasiya şikayəti verilmişdir ki, bu da birinci instansiya (ümumi və inzibati-iqtisadi) məhkəmələrində baxılmış işlərin cəmi **17 faizini** təşkil edir.

Qeyd olunan müddətdə respublikanın apellyasiya məhkəmələrində baxılmış **33.288** mülki və inzibati-iqtisadi işlər üzrə qəbul edilmiş qətnamə və qərarlarından (qərardadlarından) verilmiş **11.202** kassasiya şikayətinə Ali Məhkəmənin müvafiq kollegiyalarında baxılmışdır ki, bu da apellyasiya qaydasında baxılmış mülki və inzibati-iqtisadi işlərin **33,7 faizini** təşkil edir.

Respublikanın birinci instansiya (ümumi və hərbi) məhkəmələri tərəfindən 2018-ci ildə baxılmış cinayət işləri üzrə **14.931 nəfər** barəsində **12.539 cinayət işinə** baxılmış, onlardan **10.172** iş üzrə **12.433 nəfər** barəsində **ittiham, 89 iş** üzrə **106 nəfər barəsində bəraət hökmü çıxarılmış, 1.724 iş** üzrə **1.842 nəfər** barəsinldə **işin icraatına xitam verilmiş, 37 iş üzrə 39 nəfər barəsində tibbi xarakterli qərar çıxarılmışdır.** Qeyd




edilən **12.539 işlərdən 11.421 iş ümumi, 1.118 işə hərbi məhkəmələr** tərəfindən baxılmışdır.

Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2018-ci ildə ümumi məhkum edilənlərin sayı 2017-ci ilə nisbətən **1.300 nəfər (9,5%)** azalmış, bəraət alan şəxslərin sayı dəyişmədən **eyni qalmışdır.**

Qeyd olunan müddətdə respublikanın birinci instansiya (ümumi və hərbi) məhkəmələri tərəfindən məhkum edilmiş **6.005 nəfər** barəsində hökmlərə apellyasiya şikayəti və protesti əsasında müvafiq apellyasiya məhkəmələri tərəfindən baxılmışdır ki, bu da respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılan cinayət işləri üzrə məhkum edilənlərin cəmi **48,3%** təşkil edir.

Məlumatın əhatə etdiyi dövrdə apellyasiya məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə **6.005 nəfər** haqqında çıxarılmış hökm və qərarlardan **2142 nəfər** barəsində işə Ali Məhkəmədə kassasiya şikayəti və protesti əsasında baxılmışdır ki, bu da respublikanın apellyasiya məhkəmələrində 2017-ci ildə baxılmış cinayət işləri üzrə məhkum edilənlərin cəmi **38,7 %** təşkil edir.

Göründüyü kimi, 2018-ci ildə respublikanın birinci instansiya (ümumi və hərbi) məhkəmələri tərəfindən baxılmış cinayət işləri üzrə məhkum olunmuş şəxslər barəsindəki hökmlərin **48,3 faizinin** qanuniliyi apellyasiya qaydasında, apellyasiya məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış hökm və qərarların **38,7 faizinin** qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.

2018-ci ildə Ali Məhkəmənin məhkəmə kollegiyalarının və Plenumunun icraatında **16.193** iş, o cümlədən:

- Mülki kollegiyada **9.707** iş;

-İnzibati-İqtisadi kollegiyada: inzibati mübahisələrə dair **3.166** iş, iqtisadi mübahisələrə dair **559** iş;

- Cinayət kollegiyasında **2.606** iş;
- Hərbi kollegiyada **132** iş;
- Plenumda isə **23** iş olmuşdur.

2018-ci ildə Ali Məhkəmənin məhkəmə kollegiyalarının və Plenumun icraatına daxil olmuş işlərdən **13.217 (81,6%) işə, o cümlədən**

- Mülki kollegiyada **8.460** işə,
- İnzibati- İqtisadi kollegiyada:
- inzibati mübahisələrə dair **2.277** işə,
- iqtisadi mübahisələrə dair **465** işə,
- Cinayət kollegiyasında **1.893** işə,
- Hərbi kollegiyada **102** işə,
- Plenumda isə **20** işə baxılmışdır.

Müqayisələ təhlildən görünür ki, Ali Məhkəmədə 2018-ci ildə baxılmış işlərin sayı 2017-ci ilə nisbətən **556** iş (**4%%)** azalmışdır.

Aparılmış təhlil nəticəsində həmçinin müəyyən edilmişdir ki, 2017-ci ilə nisbətən 2018-ci ildə Ali Məhkəmədə baxılan işlərin sayı:

-Mülki kollegiyada **587 iş (6,5%) azalmış;**

- İnzibati- İqtisadi kollegiyada:

- inzibati mübahisələrə dair **144 iş (6,8%) artmış,**

**-** iqtisadi mübahisələrə dair **39 iş (7,7%) azalmış;**

-Cinayət kollegiyasında **61 iş (3,1%) azalmış;**

-Hərbi kollegiyada **10 iş (8,9%) azalmış;**

-Plenumda isə **3 iş ( 13%) azalmışdır.**



## Ali Məhkəmənin kollegiyalarında və Plenumunda icraat

Ali Məhkəmənin məhkəmə kollegiyalarında ədalət mühakiməsi işlərə (materiallara) qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hədlərdə kassasiya qaydasında baxılmaqla həyata keçirilir.

**Ali Məhkəmənin Mülki və İnzibati-İqtisadi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin mülki və inzibati-iqtisadi kollegiyalarının qətnamə, qərar və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından Ali Məhkəmə sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Cinayət və Hərbi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmə sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş Prokurorunun protesti və ya müdafiə tərəfinin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.

# Ali Məhkəmənin kollegiyalarında 2018-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat:

## 1. Ali Məhkəmənin Mülki kollegiyası

Ali Məhkəmənin Mülki kollegiyasında (bundan sonra «MK») apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərarlarından (qərardadlarından) verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır. 2018-ci ildə MK-nın icraatına 9.707 iş daxil olmuşdur ki, bu da 2017-ci ildə icraatda olmuş 10.358 mülki işdən 651 iş, yəni 6,3 % azdır.

Hesabat dövründə MK-nın icraatında olan 9.707 mülki işdən 8.460 (87,1%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 108 (1,1%) iş üzrə kassasiya şikayəti geri qaytarılmış, 26 (0,3%) iş üzrə kassasiya şikayətindən imtina edilmiş, 1.113 (11,5%) iş isə 2019-cu ilə qalıq keçirilmişdir.

MK-da 2017-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla 9.047 mülki işə baxılmışdırsa, 2018-ci ildə isə həmin işlərin sayı 587 (6,5%) azalaraq 8.460 mülki iş təşkil etmişdir.

2018-ci ildə MK-nın icraatında olan işlərin təhlili ilə müəyyən edilir ki, yekun məhkəmə qərarı çıxarılmaqla baxılan 8.460 mülki iş: o cümlədən

- 938 (11%) iş ailə münasibətləri üzrə;
- 248 (2,9%) iş əmək münasibətləri üzrə;
- 885 (10,5%) iş mənzil mübahisələri üzrə;
- 290 (3,4%) iş mülkiyyət hüququ ilə əlaqədar mübahisələr üzrə;
- 260 (3%) iş torpaq mübahisələri üzrə;
- 379 (4,5%) iş borc müqaviləsi üzrə;
- 3.107 (36,7%) iş kredit müqaviləsi və bank əmanəti, bank hesabatı müqaviləsi üzrə;
- 89 (1,1%) iş sığorta müqaviləsi üzrə;

- 192 (2,3%) vərəsəlik hüququ ilə mübahisələr üzrə;

- 244 (2,9%) aliment alınması tələbləri üzrə;

-qalan 1.828 (21,6%) iş isə digər mülki mübahisələrlə bağlı olmuşdur.

-MK-da 2018-ci ildə kassasiya qaydasında 8.460 baxılmış mülki işlər üzrə apellyasiya instansiyası məhkəmələrinin:

-6.974 (82,4%) iş üzrə qətnamə və ya qərardadı dəyişdirilmədən saxlanılmış;

-1.378 (16,3%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmiş (onlardan: 1.256 (14,8%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılmış, 75 (0,9%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş), 2 (0,02%) iş üzrə qətnamə ləğv edilərək iş baxılmamış saxlanılmış, 45 (0,5%) iş üzrə qətnamə ləğv edilərək iş üzrə icraata xitam verilmiş;

-64 (0,8%) iş üzrə qətnamə və qərardad dəyişdirilmiş:

-44 (0,5%) iş üzrə kassasiya icraatına xitam verilmişdir.

2018-ci ildə kassasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən 90.491 manat dövlət rüsumu ödənilmişdir.

2017-ci ildə kassasiya şikayəti ilə müraciət edənlər tərəfindən 70.124 manat dövlət rüsumu ödənilmişdir.

Müqayisəli təhlildən görünür ki¸ 2017-ci ilə nisbətən 2018-ci ildə baxılmış işlər üzrə dövlətə ödənilmiş dövlət rüsumunun miqdarı 20.367 manat (31,9%) artmışdır.

2018-ci il ərzində birinci və apellyasiya instansiyalarında mülki işlərə baxılarkən qanunvericiliyin tətbiqi ilə yol verilmiş qanun pozuntusu və nöqsanlarla əlaqədar olaraq Mülki Kollegiya tərəfindən aşağı instansiya məhkəmələrinə və müvafiq orqanlara 29 irad və ya icmal məktubu göndərilmişdir.

Ali Məhkəmənin Mülki Kollegiyasında 2017-ci ildə baxılan mülki işlər üzrə 2 xüsusi qərardad qəbul edildiyi halda, 2018-ci ildə cəmi 8 iş üzrə xüsusi qərardad çıxarılmışdır

Ali Məhkəmənin MK-da kassasiya qaydasında baxılmış işlərə dair məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında 2018-ci ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

**M Ə L U M A T**

| *2018-ci il* *Mülki işlər* | ***CƏMİ BAXILIB*** | *Apellyasiya instansiya məhkəməsinin qətnamə və qərardadı dəyişdirilmədən saxlanılmışdır* | ***Cəmi ləğv olunub*** | *Apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadı ləğv edilib, yeni qərar qəbul edilmişdir* | *Apellyasiya instansiya məhkəməsinin qətnamə və ya qərardadını ləğv edib yenidən baxılması üçün Apellyasiya instansiyasına göndərilməsi* | *Apellyasiya instansiya məhkəməsinin qətnamə və ya qərardadını ləğv edib , ərizə baxılmamış saxlanılmışdır* | *Apellyasiya instansiya məhkəməsinin qətnamə və ya qərardadını ləğv edib ,iş üzrə icraata xitam verilib* | *Apellyasiya instansiya məhkəməsinin qətnamə və ya qərardadı dəyişdirilmişdir* | *Kassasiya icraatına xitam verilmişdir* | *Xüsusi qərardad çıxarılmışdır* | *Dövlət rüsumlarının məbləği (manat)* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Bakı Apellyasiya Məhkəməsi** | **4.133** | **3.352 81,1%** | **718 17,4%** | **649 15,7%** | **40 0,8%** | **1 0,02%** | **28 0,7%** | **29 0,7%** | **34 0,8%** | **8** | **4.133** |
| **Gəncə Apellyasiya Məhkəməsi** | **1.296** | **1.107 85,4%** | **177 13,7%** | **163 12,6%** | **10 0,8%** | **-** | **4 0,3%** | **9 0,7%** | **3 0,2%** | | **1.296** |
| **Sumqayıt Apellyasiya Məhkəməsi** | **1.115** | **918 82,3%** | **186 16,7%** | **167 15%** | **10 0,9%** | **1 0,08%** | **8 0,7%** | **7 0,6%** | **4 0,4%** | | **1.115** |
| **Şirvan Apellyasiya Məhkəməsi** | **974** | **818 84%** | **141 14,5%** | **134 13,8%** | **6 0,6%** | **-** | **1 0,1%** | **13 1,3%** | **2 0,2%** | | **974** |
| **Şəki Apellyasiya Məhkəməsi** | **923** | **768 83,2%** | **149 16,2%** | **137 14,8%** | **8 0,9%** | | **4 0,4%** | **5 0,5%** | **1 0,1%** | | **923** |
| **Naxçıvan MR Ali Məhkəməsi** | **19** | **11 57,9%** | **7 36,8%** | **6 31,6%** | **1 5,2%** | | | **1 5,2%** | | | **19** |
| **Yekunu** | **8.460** | **6.974 82,4%** | **1.378 16,3%** | **1.256 14,8%** | **75 0,9%** | **2 0,02%** | **45 0,5%** | **64 0,8%** | **44 0,5%** | **8** | **8.460** |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin MK-da 2018-ci ildə **8.460** işə baxıldığı halda, 2017-ci ilin müvafiq dövründə isə **9.047** işə baxılmışdır ki, bu da 2018-ci ildə baxılmış **587 işin (6,5%) azalmasını göstərir.**

Qeyd olunan statistik məlumatları müqayisə etdikdə görünür ki, apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə və ya qərardadların sayı 2018-ci ildə **1.378** olduğu halda, 2017-ci ilin müvafiq dövründə isə bu rəqəm **1.427 iş** olmuşdur ki, bu da **49 işin (3,4%) azalmasını göstərir.**

Xarici ölkə məhkəmələrinin qətnaməsinin tanınması və icrası barədə 2018-ci ildə Mülki Kollegiyanın icraatında 172 ərizə olmuş, onlardan: 12 ərizə 2017-ci ildən qalıq kecmiş, 160 ərizə 2018-ci ildə daxil olmuş, 142 ərizəyə baxılmış, 30 ərizə 2019-cu ilə qalıq kimi keçmişdir.

2017-ci ildə Mülki Kollegiyanın icraatında xarici ölkə məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 147 ərizə olmuş, onlardan: 14 ərizə 2016-cı ildən qalıq kecmiş, 133 ərizə 2017-ci ildə daxil olmuş 135 ərizəyə baxılmış, 12 ərizə isə 2018-ci ilə qalıq kimi keçmişdir.

2018-ci il ilə 2017-ci ili müqayisə etdikdə görünür ki, 2018-ci ildə mülki kollegiyanın icraatında Azərbaycan Respublikasında xarici ölkə məhkəmələrinin qətnaməsinin tanınması və icrası barədə 25 (17%) ərizə artmışdır.






## 2. Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası




Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasında (bundan sonra «İİK») apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qəbul etdikləri qətnamə, qərar və qərardadlarından verilən kassasiya şikayətinə və işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin İnzibati-iqtisadi kollegiyasında qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2018-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi Kollegiyasının icraatında olan inzibati və iqtisadi mübahisələrə dair 3.725 işdən 475 (12,8%) iş 2017-cı ildən qalıq keçmişdir,

2018-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi Kollegiyasının icraatında inzibati və iqtisadi mübahisələrə dair 3.725 iş olduğu halda, 2017-cı ildə isə kollegiyanın icraatında 3275 inzibati və iqtisadi mübahisələrə dair iş daxil olmuşdur.

2018-ci ildəAzərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi Kollegiyasının icraatında olan 3.725 işdən: 3.166 (85%) iş inzibati; 559 (15%) iş isə iqtisadi mübahisələrə dair olmuşdur.

2017-ci ildə isə kollegiyanın icraatında olan 3.275 işdən isə: 2.666 (81,4%) iş inzibati; 609 (18,6%) iş isə iqtisadi mübahisələrə dair olmuşdur.

Müqayisəli təhlildən görünür ki,2017-ilə nisbətən 2018-ci ildə İnzhibati-İqtisadi Kollegiyanın icraatina **450 (13,7%) iş çox daxil olmuş, o cümlədən** 500 inzibati (18,8%) **çox,** 50 iqtisadi iş ( 8,,29 %) **az** daxil olmuşdur

2018-ci ildə İİK-nın icraatında olan 3.725 işdən 2.742 (73,6%) iş üzrə yekun məhkəmə qərarları çıxarılmaqla baxılmış, 34 (0,9%) iş baxılmadan geri qaytarılmış, 220 (5,9%) iş üzrə üzrə kassasiya şikayəti mümkün sayılmamış və baxılmadan qeri qaytarılmış, 729 (19,6%) iş isə 2019-cu ilin yanvar ayına qalıq keçirilmişdir.

İİK-da 2017-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla 2.637 işə baxılmışdırsa, 2018-ci ildə belə işlərin sayı 105 (4%) artaraq 2.742 iş təşkil etmişdir.

İİK-da 2018-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan işlərin təhlili göstərir ki, 2.742 işdən:

-433 (15,8%) iş Əmlak Məsələləri Dövlət Komitəsi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

-716 (26,1%) iş Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

-312 (11,4%) iş Bələdiyələr, İcra Hakimiyyəti və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

-291(10,6%) iş Vergilər Nazirliyi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

- 26 (1%) iş icarə müqaviləsi üzrə;

- 84 (3%) iş borç müqaviləsi üzrə;

- 55 (2%) iş kredit müqaviləsi, bank əmanəti və ya bank hesabatı müqaviləsi üzrə;

- 14 (0,5%) iş sığorta müqaviləsi üzrə;

- 811 (29,6%) digər struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə olmuşdur.




İİK-da kassasiya qaydasında baxılmış cəmi 2.742 iş üzrə çıxarılmış yekun məhkəmə qərarlarından:

-1.872 (68,3%) iş üzrə qətnamə, qərar və ya qərardad dəyişdirilmədən saxlanılmışdır.

- 809 (29,5%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmişdir. Onlardan: 598 (21,8%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılmış; 100 (3,6%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş); 83 (3%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə)

baxılmamış saxlanılmış və ya mümkün sayılmamış; 28 (1%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmiş;

- 28 (1%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş;

- 33 (1,1%) iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

2018-ci ildə kasasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən 6.780 manat dövlət rüsumu ödənilmişdir.

2017-ci ildə kassasiya şikayəti ilə müraciət edənlər tərəfindən 7.079 manat dövlət rüsumu ödənilmişdir.

Müqayisəli təhlildən görünür ki¸ 2017-ci ilə nisbətən 2018-ci ildə baxılmış işlər üzrə dövlətə ödənilmiş dövlət rüsumunun miqdarı 299 manat (4,2%) azalmışdır.

Hesabat dövründə Ali Məhkəmənin İİK-da baxılan iqtisadi mübahisəyə dair 1 iş üzrə xüsusi qərardad çıxarılmışdır.

## İnzibati işlər üzrə

2018-ci ildə İİK-nın icraatında 3.166 inzibati iş olmuşdur ki, bu da 2017-cı ildə icraatda olmuş 2.666 işdən 500 iş, yəni 18,8% çox olmuşdur.

İİK-nın icraatında olan 3.166 inzibati işdən 2.277 (71,9%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 220 (7%) iş üzrə kassasiya şikayəti mümkün sayılmamış və baxılmadan qeri qaytarılmış, 669 (21,1%) iş 2019-cu ilin yanvar ayına qalıq keçmişdir.

İİK-da 2018-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan işlərin təhlili göstərir ki, 2.277 işdən:

-433 (19%) iş Əmlak Məsələləri Dövlət Komitəsi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

-716 (31,5%) iş Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

-312 (13,7%) iş Bələdiyələr, İcra Hakimiyyəti və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

-291(12,8%) iş Vergilər Nazirliyi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;

- 525 (23%) digər struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə olmuşdur.

İİK-da kassasiya qaydasında baxılmış 2.277 inzibati iş üzrə çıxarılmış yekun məhkəmə qərarlarının təhlili göstərir ki:

-1.557 (68,4%) iş üzrə qərar və ya qərardad dəyişdirilmədən saxlanılmış;

- 669 (29,3%) iş üzrə qərar və ya qərardad ləğv edilmiş, onlardan: 490 (21,5%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış, 83 (3,6%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş; 80 (3,5%) iş üzrə qərar və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) mümkün sayılmamış; 16 (0,7%) iş üzrə qərar və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmiş;

-24 (1,1%) iş üzrə qərar ya qərardad dəyişdirilmiş;

-27 (1,2%) iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

2018-ci ildə kassasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən 3.162 manat məbləğində dövlət rüsumu ödənilmişdir.

Bu məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

***2018-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasında apellyasiya instansiyası məhkəmələrində baxılan inzibati və iqtisadi mübahisələr üzrə qətnamə, qərar və ya qərardadlarının kassasiya qaydasında baxılma nəticələrinə dair***

**M Ə L U M A T**

| 2018-ci il<br>İnzibati işlər | Cəmi baxılmışdır | Qərar və ya qərardad qüvvədə saxlanılmışdır | Cəmi ləğv edilmişdir | Qərar və ya qərardad ləğv edilərək | | | | Qərar və ya qərardad dəyişdirilmişdir | Kassasiya icraatına xitam verilmişdir | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | İş apelyasiya instansiya məhkəməsinə | Yeni qərar qəbul edilmişdir | İddia mümkün saylmamışdır | İş üzrə icraata xitam verilmişdir | | | |
| Bakı Apellyasiya Məhkəməsi | 1.458 | 994<br>68,2% | 429<br>29,4% | 300<br>20,6% | 68<br>4,7% | 49<br>3,4% | 12<br>0,8% | 15<br>1% | 20<br>1,3% | |
| Gəncə Apellyasiya Məhkəməsi | 211 | 129<br>61,2% | 75<br>35,6% | 55<br>26,1% | 5<br>2,4% | 14<br>6,6% | 1<br>0,5% | 3<br>1,4% | 4<br>1,8% | |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 234 | 169<br>72,2% | 62<br>26,5% | 47<br>20% | 3<br>1,3% | 9<br>3,8% | 3<br>1,3% | 2<br>0,9% | 1<br>0,4% | |
| Şirvan Apellyasiya Məhkəməsi | 163 | 117<br>71,8% | 44<br>27% | 39<br>23,9% | 2<br>1,2% | 3<br>1,8% | | 2<br>1,2% | | |
| Şəki Apellyasiya Məhkəməsi | 201 | 144<br>71,6% | 53<br>26,4% | 43<br>21,4% | 5<br>2,5% | 5<br>2,5% | | 2<br>1% | 2<br>1% | |
| Naxçıvan MR Ali Məhkəməsi | 10 | 4<br>40% | 6<br>60% | 6<br>60% | | | | | | |
| Yekun Cəm | 2.277 | 1.557<br>68,4% | 669<br>29,4% | 490<br>21,5% | 83<br>3,6% | 80<br>3,5% | 16<br>0,7% | 24<br>1,1% | 27<br>1,2% | |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin İİK-da 2018-ci ildə **2.277** işə baxıldığı halda, 2017-ci illə müqayisədə **2.133** işə baxılmış, bu da 2018-ci ildə **144** işin (6,8%) işin artmasını göstərir.

Apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qərar və ya qərardadların sayı 2018-ci ildə **669** olduğu halda, 2017-ci ilin müvafiq dövründə isə **731** iş ləğv edilmiş, bu da 2018-ci ildə **62 (8,5%)** ləğv olunmuş işin azalmasını göstərir.

**İqtisadi işlər üzrə**

2018-ci ildə İİK-nın icraatına 559 iqtisadi iş daxil olmuşdur ki, bu da 2017-ci ildə icraatda olmuş 609 işdən 50 (8,2%) iş azdır.

İİK-nın icraatında olan 559 işdən 465 (83,2%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 34(3,6%) iş baxılmadan geri qaytarılmış, 60 (14,1%) iş isə 2019-cu ilin yanvar ayına qalıq keçirilmişdir.İİK-da 2018-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla 465 işə baxılmışdırsa, 2017-cı ildə isə 504 işə baxılmışdır ki, bu da baxılmış işlərin 7,7% (39 iş) azalmasını göstərir.

İİK-da 2018-ci ildə yekun hesabat dövründə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan 465 işdən:

- 26 (5,6%) iş icarə müqaviləsi üzrə;
- 84 (18,1%) iş borç müqaviləsi üzrə;
- 55 (11,8%) iş kredit müqaviləsi, bank əmanəti və ya bank hesabatı müqaviləsi üzrə;
- 14 (3%) iş sığorta müqaviləsi üzrə;
-qalan 286 (61,5%) iş isə digər mübahisələrə dair işlər olmuşdur.

İİK-da kassasiya qaydasında baxılmış 465 iş üzrə çıxarılmış yekun məhkəmə qərarlarının təhlili göstərir ki:

- 315 (67,7%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış;
-140 (30,1%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmiş, onlardan:
-108 (23,2%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılmış,
-17 (3,7%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;
-3 (0,6%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış;
-12 (2,6%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmiş;
-4 (0,9%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş;
-6 (1,3%) iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

2018-ci ildə kassasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən 3.917 manat dövlət rüsumu ödənilmişdir.

Bu məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

*Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi kollegiyasında 2018-ci ildə apellyasiya instansiyası məhkəmələrinin iqtisadi işlər üzrə qərar və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında*

**M Ə L U M A T**

| *2018-ci il*<br>*İqtisadi işlər* | CƏMİ BAXILIB | Apellyasiya instansiya məhkəməsinin qətnamə və qərardadı dəyişdirilmədən saxlanılıb | Ləğv olunaraq iş, | | | | | Qətnamə və ya qərardadı dəyişdirilmişdir | Kassasiya icraatına xitam verilmişdir | Xüsusi qərardad çıxarılmışdır |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | **Cəmi ləğv olunub** | Yenidən baxılması üçün apellyasiya instansiyasına göndərilib | Yeni qərar qəbul edilib | Ərizə baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| **Bakı Apellyasiya Məhkəməsi** | **350** | **236**<br>**67,4%** | **107**<br>**30,6%** | **80**<br>**22,9%** | **16**<br>**4,6%** | **3**<br>**0,8%** | **8**<br>**2,3%** | **3**<br>**0,8%** | **4**<br>**1,2%** | **1** |
| **Gəncə Apellyasiya Məhkəməsi** | **32** | **19**<br>**59,4%** | **13**<br>**40,6%** | **10**<br>**31,3%** | | | **3**<br>**9,3%** | | | |
| **Sumqayıt Apellyasiya Məhkəməsi** | **25** | **18**<br>**72%** | **5**<br>**20%** | **5**<br>**20%** | | | | | **2**<br>**8%** | |
| **Şirvan Apellyasiya Məhkəməsi** | **37** | **24**<br>**64,8%** | **12**<br>**32,5%** | **10**<br>**27,1%** | **1**<br>**2,7%** | | **1**<br>**2,7%** | **1**<br>**2,7%** | | |
| **Şəki Apellyasiya Məhkəməsi** | **20** | **17**<br>**85%** | **3**<br>**15%** | **3**<br>**15%** | | | | | | |
| **Naxçıvan MR Ali Məhkəməsi** | **1** | **1**<br>**100%** | | | | | | | | |
| **Yekun** | **465** | **315**<br>**67,7%** | **140**<br>**30,1%** | **108**<br>**23,2%** | **17**<br>**3,7%** | **3**<br>**0,6%** | **12**<br>**2,6%** | **4**<br>**0,9%** | **6**<br>**1,3%** | **1** |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin İİK-da 2018-ci ildə **4** işə baxıldığı halda, 2017-ci ilin müvafiq dövründə isə **504 işə** baxılmışdır ki, bu da 2018-ci ildə baxılmış **39 işin (9,2%) azalmasını göstərir.**

Qeyd olunan statistik məlumatları müqayisə etdikdə görünür ki, hər iki ildə ləğv edilmiş məhkəmə qətnamə və ya qərarlarının (qərardadlarının) sayı eyni olmuşdur.

## 3. Ali Məhkəmənin Cinayət kollegiyası

Ali Məhkəmənin Cinayət kollegiyasında (bundan sonra «CK») apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.




CK-da müharibə və hərbi xidmət əleyhinə olan, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işləri, məhkəməyədək sadələşdirilmiş və ya xüsusi ittiham qaydasında şikayət üzrə materiallar istisna olmaqla, qalan işlərə (materiallara) kassasiya qaydasında baxılır.

2018-ci il ərzində CK-nın icraatında 2.904 nəfər barəsində 2.606 iş olmuş, onlardan 2.570 (88,5%) nəfər barəsində 2.306 (88,4%) iş kassasiya şikayətinə, 1 (0,1%) nəfər barəsində 1 (0,1%) iş təqdimata, 333 (11,4%) nəfər barəsində 299 (11,5%) iş kassasiya protestinə əsasən daxil olmuşdur.

2018-ci ildə CK-na daxil olmuş 2.904 nəfər barəsində 2.606 iş üzrə

-2.179 (75%) nəfər barəsində 1.893 (72,6%) cinayət işi üzrə kassasiya şikayəti və protestinə baxılmaqla yekun məhkəmə qərarı çıxarılmış,

-725(25%) nəfər barəsində 713 (27,4%) iş isə 2019-cu ilə keçmişdir.

2017-ci ildə CK-da kassasiya qaydasında mahiyyəti üzrə 2.179 nəfər barəsində 1.893 işə baxılaraq, çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin;

-234 (10,7%) iş üzrə 176 (9,3%) nəfər barəsində qərarları ləğv olunmuş (onlardan 220 (10,1%) nəfər barəsində 164 (8,7%) iş üzrə qərarları ləğv olunmuş və yeni apellyasiya baxışına qaytarılmış, 14 (0,6%) nəfər haqqında 12 (0,6%) iş üzrə qərarları ləğv olunaraq cinayət işinin icraatına xitam verilmiş);

-238 (10,9%) nəfər barəsində 194 (10,2%) iş üzrə qərarlar dəyişdirilmiş;

- 1 (0,1%) nəfər barəsində 1 (0,1%) iş üzrə kassasiya icraatına xitam verilmiş;

-245 (11,2%) nəfər barəsində 241 (12,7%) iş üzrə kassasiya şikayəti verilmə müddəti bərpa olunmamış;




-371 (17%) nəfər barəsində 326 (17,2%) iş üzrə olan kassasiya şikayəti məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmış;

- 1.090 (50,1%) nəfər barəsində 955 (50,4%) iş üzrə qərarları isə dəyişdirilmədən saxlanılmışdır.

Kollegiyada baxılmış işlər üzrə cəmi 4 xüsusi qərar qəbul edilmişdir.

Bu məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

## *Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasında 2018-ci ildə apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair*

## MƏLUMAT

| *2018-ci il* <br> *Cinayət işləri üzrə (nəf.)* | *Cəmi baxılıb* | *Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır (şəxslərin sayı)* | *Cəmi ləğv edilmişdir* | *Cəmi dəyişdirilmişdir* | *Kassasiya icraatına xitam verilmişdir* | *Kassasiya şikayəti və ya kassasiya protesti vermə müddəti bərpa edilməmişdir* | *Cinayət işi geri qaytarılıb* | *Xüsusi qərar çıxarılmışdır* |
|---|---|---|---|---|---|---|---|---|
| *Bakı Apellyasiya Məhkəməsi* | *1.272* | *570 49,4%* | *120 11,2%* | *155 14,4%* | *-* | *194 3,8%* | *233 21,1%* | *3* |
| *Gəncə Apellyasiya Məhkəməsi* | *185* | *109 58,3* | *29 16,1%* | *11 6,1%* | *-* | *12 6,1%* | *24 13,3%* | |
| *Sumqayıt Apel.Məhkəməsi* | *221* | *114 51,8%* | *46 21,1%* | *25 11%* | *-* | *12 5,5%* | *24 10,6%* | |
| *Şirvan Apellyasiya Məhkəməsi* | *345* | *205 59,6%* | *31 9,2%* | *35 10%* | *1 0,3%* | *20 5,3%* | *53 15,6%* | *1* |
| *Şəki Apellyasiya Məhkəməsi* | *144* | *85 58,6%* | *8 6%* | *11 7,5%* | | *6 2,3%* | *34 25,6%* | |
| *Naxçıvan MR Ali Məhkəməsi* | *11* | *7 63,6%* | *-* | *1 9,1%* | | | *3 27,3%* | |
| *Respublika Apel.Məhkəməsi* | *1* | | | | | *1 100%* | | |
| *Yekunu* | *2.179* | *1.090 53,2%* | *234 12%* | *238 11,9%* | *1 0,05%* | *245 4,4%* | *371 18,4%* | *4* |

**QEYD:**Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin CK-da 2018-ci ildə 2.179 nəfər barəsində 1.893 işə baxıldığı halda, 2017-ci ilin müvafiq dövründə isə 2.234 nəfər barəsində 1.954 işə baxılmışdır. Göründüyü kimi, 2017-ci il ilə müqayisədə 2018-ci ildə baxılmış işlərin sayı 61 iş (3,1%), şəxslərin sayı isə 55 (25%) nəfər azalmışdır.

2018-ci ildə 234 nəfər haqqında 176 iş ləğv olunduğu halda, 2017-ci ildə dövründə isə 258 nəfər haqqında 202 iş ləğv olunmuş, yəni 2018-ci ildə ləğv olunmuş işlərin sayı 26 (14,6%) iş, şəxslərin sayı isə 26 (10,5%) nəfər azalmışdır.

## 4. Ali Məhkəmənin Hərbi kollegiyası

Ali Məhkəmənin Hərbi kollegiyasında (bundan sonra «HK») müharibə və hərbi xidmət əleyhinə olan, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işləri üzrə apellyasiya instansiyası məhkəmələrinin hərbi kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəmələrinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyalarının çıxardıqları hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2018-ci ildə HK-nın icraatında olmuş 175 nəfər barəsində 132 cinayət işdən 154 (88%) nəfər məhkum tərəfindən 116 (87,9%) iş kassasiya şikayəti, 21 (5,5%) nəfər məhkum barəsində 16 (12,1%) iş isə kassasiya protesti ilə bağlı olmuşdur. Onlardan:-142 (81,8%) nəfər barəsində 102 (77,3%) cinayət işinə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 33 (18,8%) nəfər barəsində 30 (22,7%)cinayət işi isə 2019-cu ilə qalıq keçmişdir.

2018-ci ildə HK-da kassasiya qaydasında mahiyyəti üzrə 142 nəfər barəsində 102 işə baxılaraq, apellyasiya instansiyası məhkəmələrinin:

-6 (4,2%) nəfər barəsində 5 (4,9%) iş üzrə qərarları ləğv olunmuş və cinayət işləri yeni apellyasiya baxışına qaytarılmış;

- 34 (23,9%) nəfər barəsində 23 (22,5%) iş üzrə qərarlar dəyişdirilmiş;

- (23,9%) nəfər barəsində 25 (24,6%) iş üzrə olan kassasiya şikayəti məhkumların və ya onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmışdır və ya baxılmamış saxlanılmış;

- 68 (47,9%) nəfər barəsində 49 (48%) iş üzrə qərarları dəyişdirilmədən saxlanılmışdır.

Hesabat dövründə HK-da baxılan işlər üzrə xüsusi qərar çıxarılmamışdır.

Qeyd olunan məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə ayrı-ayrılıqda aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasında 2018-ci ildə apellyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

**M Ə L U M A T**

| *2018-ci il*<br><br>*Hərbi işlər üzrə* | ***Cəmi baxılıb*** | *Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır* | ***Cəmi ləğv edilmişdir*** | ***Cəmi dəyişdirilmişdir*** | *Kassasiya icraatına xitam verilmişdir* | *Kassasiya şikayəti və ya kassasiya protesti vermə müddəti bərpa edilməmişdir* | *Cinayət işi geri qaytarılıb* | *Xüsusi qərar çıxarılmışdır* |
|---|---|---|---|---|---|---|---|---|
| ***Bakı Apellyasiya Məhkəməsi*** | ***36*** | ***15<br>41,7%*** | ***-*** | ***15<br>41,7%*** | | | ***6<br>16,6%*** | |
| ***Gəncə Apellyasiya Məhkəməsi*** | ***56*** | ***34<br>60,7%*** | ***3<br>5,4%*** | ***8<br>14,3%*** | | | ***11<br>19,6%*** | |
| ***Sumqayıt Apellyasiya Məhkəməsi*** | ***11*** | ***7<br>63,6%*** | ***2<br>18,2%*** | ***-*** | | | ***2<br>18,2%*** | |
| ***Şirvan Apellyasiya Məhkəməsi*** | ***16*** | ***9<br>56,2%*** | ***1 6,3%*** | ***5<br>31,2%*** | | | ***1<br>6,3%*** | |
| ***Şəki Apellyasiya Məhkəməsi*** | ***5*** | | | ***3<br>60%*** | | | ***2<br>40%*** | |
| ***Naxçıvan MR Ali Məhkəməsi*** | ***18*** | ***3<br>16,7%*** | | ***3<br>16,7%*** | | | ***12<br>66,6%*** | |
| | | | | | | | | |
| ***Yekunu*** | ***142*** | ***68<br>47,9%*** | ***6<br>4,2%*** | ***34<br>23,9%*** | | | ***34<br>23,9%*** | |

**Qeyd:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin HK-da 2018-ci ildə 142 nəfər barəsində 102 işə baxıldığı halda, 2017-ci ilin müvafiq dövründə 134 nəfər barəsində 112 işə baxılmışdır ki, bu da 2018-ci ildə baxılmış işlərin sayına görə 10 iş (8,9%) azalmasını, şəxslərin sayına görə isə 8 (6%) nəfərin artmasını göstərir.

Bundan başqa, 2018-ci ildə 6 nəfər barəsində 5 iş ləğv olunduğu halda, 2017-ci ilin müvafiq dövründə isə 11 nəfər haqqında 10 iş ləğv olunmuşdur ki, bu da 2018-ci ildə 5 iş (50%) və 5 (45,5%) nəfər barəsində ləğvin azalmasını göstərir.






## Ali Məhkəmə Kollegiyalarının hakimləri tərəfindən 2018-ci ildə görülmüş işlər.

2018-ci ildə kollegiyaların hakimləri bir sıra xarici ölkələrdə ezamiyyətdə olmuş, müxtəlif seminar və konfranslarda iştirak etmiş, müxtəlif hüququ mövzulara dair məqalələri mətbuatda və Ali Məhkəmənin bülletenində dərc edilmişdir. Belə ki,

**Mülki Kollegiyanın hakimlərindən;**

**-Əsəd Mirzəliyev**

2018-ci ilin may ayında Hakimlər Assosiasiyasının Qəbələ şəhərində keçirilən seminar məşğələdə mülki işlərə baxılarkən yol verilən xarakterik nöqsanlar mövzüsunda,

- Ədliyyə akademiyasında birinci instansiya məhkəmələri üçün keçirilən seminarda çıxış etmiş,

- Elektron məhkəməyə keçidlə əlaqədar Mülki Prosessual Məcəlləyə dəyişiklik və əlavələr edilməsi barədə qanun layihəsinin hazırlanmasında iştirak etmişdir

**-Əli Rüstəmov** Bakı Dövlət Universitetinin hüquq fakultəsinin tələbələri ilə "Azərbaycan Respublikasının məhkəmə sistemi və məhkəmə fəaliyyətinin prinsipləri" mövzusunda elmi-praktik müzakirədə iştirak etmişdir.

**-İlqar Dəmirov** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında «Yetkinlik yaşına çatmayan uşaqların əlavə xərclərinin ödənilməsində valideynlərin iştirakı və rolu» mövzusunda müzakirələrdə iştirak etmiş, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında ixtisasartırma kursu keçən hakimlər üçün «Ziyan vurma nəticəsində əmələ gələn öhdəliklər» üzrə işlərə məhkəmələrdə baxılmasının xüsusiyyətləri" mövzüsunda müzakirələrdə iştirak etmiş,

**-Akif İsgəndərov** - Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində Beynəlxalq Əmək Təşkilatının Beynəlxalq Təhsil Mərkəzi tərəfindən təşkil olunmuş beynəlxalq əmək normaları üzrə subregional tədris kursunda iştirak etmiş və bu barədə A.İsgəndərova müvafiq sertifikat verilmişdir.

**-Elşanə Vəliyeva** -Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 16.11.2017-ci il tarixli qərarına əsasən 21 dekabr 2017-ci ildən 21 iyun 2018-ci il tarixinədək 06 ay müddətinə Ədliyyə Akademiyasına ezam olunmuşdur, hakimlərin ixtisasartırma kurslarının proqramlarının yenidən işlənməsi və hakimliyə namizədlərin tədris kursunun proqramlarının təkminləşdirilməsində iştirak etmişdir.

Bundan əlavə Kollegiyanın hakimləri 14 sentyabr 2018-ci il tarixdə Avropa İnsan Hüquqları Konvensiyasının və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqinə dair Avropa İttifaqının və Avropa Şurasının birgə proqramı çərçivəsində Bakı şəhərində təşkil olunmuş konfrasda iştirak etmişlər.

**İnzibati-İqtisadi Kollegiyası**

**Kollegiyanın sədri Hikmət Mirzəyev**

2018-ci il ərzində vətəndaşların qəbulu ilə əlaqədar 20 nəfər şikayətçini qəbul edərək onların şikayətlərini öyrənmiş, şikayətlərlə əlaqədar müvafiq işləri tələb etmişdir.

Onun rəhbərlik etdiyi nümayəndə heyəti 2018-ci ilin may ayının 27-dən 30-dək Litva Respublikasında keçirilən Mərkəzi və Şərqi Avropa ölkələrinin Ali Məhkəmə sədrlərinin 8-ci Konfransında;

24-26 oktyabr 2018-ci il tarixlərində Türkiyə Cümhuriyyəti Danıştay Başkanlığının 150-ci ildönümü tədbirləri çərçivəsində "150 ildə Dövlət Şurasından Danıştaya" adlı beynəlxalq simpoziumda iştirak etmişdir.

**Kollegiyanın hakimlərindən**

**Nigar Rəsulbəyova:**

- Azərbaycan Respublikası Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən konfranslarda;

- Türkiyə Cümhuriyyəti Danıştay Başkanlığının 150-ci ildönümü münasibətilə beynəlxalq simpoziumda;

- Sentyabrın 14-də Bakıda Avropa İttifaqının və Avropa Şurasının "Avropa İnsan Hüquqları Konvensiyasının və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" birgə proqramı çərçivəsində "Mülkiyyət hüququ" mövzusunda keçirilmiş konfransda iştirak etmişdir.

**Zakir Quliyev:**

- 22.10.2018-ci il tarixdə Azərbaycan Respublikasının Ədliyyə Akademiyasında hakimliyə nazmizədlər üçün keçilərn kurslarda Şəhərsalma və Tikinti Məcəlləsinin tətbiqi ilə bağlı "Tikintiyə icazə verilməsi sahəsində yaranan mübahisələrə baxılması xüsusiyyətləri" mövzusunda mühazirə oxumuş;

- 01 may 2018-ci il tarixdə Yasamal rayon məhkəməsində Latviya Ədliyyə Nazirliyinin nümayəndə heyəti tərəfindən hakimlər üçün "Məhkəmə idarəçiliyi və hakimlərin qiymətləndirilməsi məsələləri" mövzusunda keçirilən tədbirdə;

-10-11 may 2018-ci il tarixdə Şəki və Sumqayıt şəhərində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin təşkilatçılığı ilə "İnzibati prosesdə hakimlərin iş metodikasının səmərəliliyinin artırılması" mövzusunda keçirilən seminarda iştirak etmişdir.

**Azər Hüseynov:**

- BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) "Şərqi Avropa və cənubi Qafqazda sığınacaq sistemlərinin keyfiyyətinin artırılması təşəbbüsü" layihəsi çərçivəsində, habelə Miqrasiya siyasətinin inkişafı üzrə Beynəlxalq Mərkəz (İCMPD) tərəfindən həyata keçirilən "Azərbaycanla mobillik naminə

tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBİLAZE)" layihəsi çərçivəsində 27-28 fevral 2018-ci il tarixlərdə Bakı şəhərində hakimlər üçün "Sığınacağa dair himayə" mövzusunda keçirilən təlimdə;

- BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) Azərbaycan nümayəndəliyinin Avropa Şurası ilə birgə keçiriliş "Qaçqınların və sığınacaq axtaran şəxslərin çıxarma və məcburi geri qaytarmadan himayəsi, sığınacaqla bağlı işlərdə məhkəmə qərarları" mövzusuna dair 11.10.2018-ci il tarixdə Bakı şəhərində keçirilən dəyirmi masada;

- Şərq Tərəfdaşlığı ölkələrini əhatə edən "Yaxşı idarəçilik üçün tərəfdaşlıq" proqramı çərçivəsində Avropa Şurası Beynəlxalq Hüquqşünsalar Komissiyası və AR Vəkillər Kollegiyasının birgə əməkdaşlığı ilə "Vəkillərin rolu və müstəqilliyi: müqayisəli perspektivlər" mövzusunda 15-16 noyabr 2018-ci il tarixdə Bakı şəhərində keçirilən beynəlxalq konfransda;

- Sumqayıt Apellyasiya Məhkəməsinin hakimlərinin və məhkəmənin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinin sədrlərinin və hakimlərinin iştirakı ilə 2017-ci ildə Sumqayıt Apellyasiya Məhkəməsi tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar görülmüş işlərin təhlilinə dair keçirilmişmüşavirədə iştirak etmişdir.

**İlqar Dadaşov:**

- BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) "Şərqi Avropa və cənubi Qafqazda sığınacaq sistemlərinin keyfiyyətinin artırılması təşəbbüsü" layihəsi çərçivəsində, habelə Miqrasiya siyasətinin inkişafı üzrə Beynəlxalq Mərkəz (İCMPD) tərəfindən həyata keçirilən "Azərbaycanla mobillik naminə tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBİLAZE)" layihəsi çərçivəsində 27-28 fevral 2018-ci il tarixlərdə Bakı şəhərində hakimlər üçün "Sığınacağa dair himayə" mövzusunda keçirilən təlimdə;

- Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) Azərbaycanın Patent və Əmtəə Nişanları Mərkəzi tərəfindən birgə təşkil edilmiş "Əqli mülkiyyətə hörmətin aşılanması" mövzusunda 3-4 may 2018-ci il tarixlərdə Bakı şəhərində keçirilən Sub-regional seminarda;

- Vəkillər Kollegiyasının üzvlüyünə qəbulla bağlı ixtisas imtahanlarını müvəffəqiyyətlə vermiş namizədlərin peşə fəaliyyətinə buraxılmaları məqsədilə Ədliyyə Akademiyasında 14-31 may 2018-ci il tarixlərdə keçirilmiş icbari təlimlərdə 6 mühazirə oxumuş;

- BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və Avropa Şurasının birgə təşkil etdiyi "Qaçqınların müdafiəsinə zərər vurmadan milli təhlükəsizlik məslələrinin həlli" mövzusunda 25-26 sentyabr 2018-ci il tarixlərdə Gürcüstan Respublikasının Tbilisi şəhərində keçirilən dəyimi masada;

- Gəncə Apellyasiya Məhkəməsinin hakimlərinin və məhkəmənin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinin sədrlərinin və hakimlərinin iştirakı ilə 2017-ci ildə Gəncə Apellyasiya Məhkəməsi tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar görülmüş işlərin təhlilinə dair keçirilmişmüşavirədə iştirak etmişdir.

**Rahib Nəbizadə:**

- Hakimliyə namizədlər üçün Ədliyyə Akademiyasında təşkil edilən seminarlarda mühazirələr oxumuş;

- Şəki Apellyasiya Məhkəməsinin hakimlərinin və məhkəmənin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinin sədrlərinin və hakimlərinin iştirakı ilə 2017-ci ildə Şəki Apellyasiya Məhkəməsi tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar görülmüş işlərin təhlilinə dair keçirilmişmüşavirədə iştirak etmişdir.

**İlqar Hüseynov:**

- Sentyabrın 14-də Bakıda Avropa İttifaqının və Avropa Şurasının "Avropa İnsan Hüquqları Konvensiyasının və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" birgə proqramı çərçivəsində "Mülkiyyət hüququ" mövzusunda keçirilmiş konfransda iştirak etmişdir.

**Kəmaləddin Bədəlov:**

- Şirvan Apellyasiya Məhkəməsinin hakimlərinin və məhkəmənin ərazi yurisdiksiyasına aid edilmiş birinci instansiya məhkəmələrinin sədrlərinin və hakimlərinin iştirakı ilə 2017-ci ildə Şirvan Apellyasiya Məhkəməsi tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar görülmüş işlərin təhlilinə dair keçirilmişmüşavirədə iştirak etmişdir.

**Xəqani Məmmədov:**

- 05-06 mart 2018-ci il tarixlərində Türkiyə Respublikası Ali Məhkəməsinin yaradılmasının 150 illiyi münasibətilə Ankara şəhərində keçirilən tədbirlərdə;

- 24-26 oktyabr 2018-ci il tarixlərində Türkiyə Respublikası Danıştay Başkanlığının 150-ci ildönümü tədbirləri çərçivəsində "150 ildə Dövlət Şurasından Danıştaya" adlı beynəlxalq simpoziumda;

- Xorvatiya Respublikasının Zaqreb şəhərində Avropa hakimlərinin Məşvərətçi Şurasının növbəti iclasında iştirak etmişdir.

**Cinayət Kollegiyası**

**Cinayət Kollegiyasının sədri Şahin Yusifov tərəfindən**

kollegiyanın icraatında olan işlər üzrə Ali Məhkəmənin sədrinə ünvanlanmış ərizə vəşikayətlərlə bağlı 17 nəfəri qəbul etmiş,

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən kommunikasiya edilən 24 nəfər Azərbaycan Respublikasının vətəndaşlarının şikayətləri üzrə Ali Məhkəməyə göndərilmiş sorğu məktubları əsasında cinayət işlərini və materialları tələb edib öyrənmiş və insan hüquqları şöbəsinin əməkdaşları ilə birgə

sorğularda qoyulmuş suallara cavab məktubları hazırlayaraq Avropa Məhkəməsinin yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsinə göndərmiş,

2 nəfər sabiq prokurorluq əməkdaşlarının cinayət məsuliyyətinə cəlb edilməsi üçün qərar layihələrini hazırlayaraq Ali Məhkəmənin sədrinə təqdim etmiş

2018-ci il ərzində vətəndaşlar, müxtəlif hökümət və qeyri-hökümət təşkilatlarından daxil olmuş 41 ərizə və sorğuya cavab verilmiş çox saylı qanun layihələri və təklifləri hazırlanmış, bir çox beynəlxalq tədbirlərdə iştirak etmiş və müxtəlif mövzularla çıxışlar etmişdir.

**Kollegiyanın hakimlərindən:**

**Tahir Kazımov** Vəkillər Kollegiyasının İxtisas Komissiyasının üzvü kimi vəkilliyə namizədlər üçün test və şifahi imtahanlarının keçirilməsində, onlarla fərdi söhbətlərin aparılmasında iştirak etmişdir.

**Gülzar Rzayeva** 03 may 2018-ci il tarixdə AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi və Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının birgə təşkilatçılığı ilə "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda konfransda iştirak etmişdir.

**Hafiz Nəsibov** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında hakimlər, hakimliyə namizədlər və vəkillər üçün təşkil olunmuş təlim və tədris kurslarında mühazirələrlə çıxış etmiş, “Həbs qətimkan tədbiri, qabaqcıl təcrübə” mövzusunda 18 dekabr 2018-ci il tarixdə Belorus Respublikasında (Minsk şəhərində) keçirilmiş beynəlxalq konfransda iştirak etmişdir.

**İmran Hacıqayıbov** Avropa Şurasının Beynəlxalq Hüquqşünaslar Komissiyası və Azərbaycan Respublikası Vəkillər kollegiyasının birgə əməkdaşlığı ilə 15-16 noyabr 2018-ci il tarixlərdə Bakıda “Vəkillərin rolu və müstəqilliyinə müqayisəli baxış” mövzusunda beynəlxalq konfransda iştirak etmişdir.

**Fərhad .Kərimov** 2018-ci ildə Ədliyyə Akademiyasında hakimlər üçün təşil edilmiş ixtisasartırma kursunda “Ayrı-ayrı kateqoriyalara aid cinayətlərə baxılmasının xüsusiyyətləri”, “Qətimkan tədbirlərinin seçilməsi xüsusiyyətləri” mövzularında, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə qəbulla bağlı ixtisas imtahanlarını müvəffəqiyyətlə vermiş namizədlərin peşə fəaliyyətinə buraxılmaları məqsədilə Ədliyyə Akademiyasında keçirilmiş tədris kurslarında “Yetkinlik yaşına çatmayan cinayət törətmiş şəxslərin hüquqi müdafiəsinin bəzi məsələləri” mövzularında mühazirələrləçıxış etmiş, Azərbaycan Respublikası Ali Məhkəməsinin nümayəndəsi kimiProkurorluq orqanlarına işə qəbulla bağlı namizədlərin test və yazılı imtahanlarında iştirak etmişdir.

Bundan başqa 2018-ci ildə Cinayət kollegiyasının hakimləri tərəfindən ümimilikdə 91 əlavə kassasiya şikayətləri və yeni açılmış hallar üzrə ərizələrlə bağlı qərar layihələri hazırlanaraq Ali Məhkəmənin sədrinə təqdim olunmuş, Əfv komissiyasından daxil olmuş materiallar əsasında 388 rəy hazırlanaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin əfv məsələləri üzrə sektoruna göndərilmişdir, konkret işlərə baxmaqla yanaşı Ali Məhəmə tərəfindən müəyyən işlərin görülməsində, müzakirəyə göndərilmiş qanun layihələrinə dair rəy və

təkliflərin verilməsində, Plenum qərarlarının və digər sənədlərin hazırlanmasında, bir sıra tədbirlərin keçirilməsində yaxından iştirak etmişlər.

**Hərbi kollegiyanın hakimləri** tərəfindən 17-18 dekabr 2018-ci il tarixdə Azərbaycan Hüquqşünaslar Konfederasiyasının və Türkiyə Hüquq Platformasının birgə təşkilatçılığı ilə II Avrasiya Hüquq Qurultay keçirilmişdir. Həmin tədbirdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi Kollegiyasının Hakimləri kollegiya sədri Əziz Seyidov, İnqilab Nəsirov və Fərhad Əliyev iştirak etmişlər.

Avropa Şurasının Beynəlxalq Hüquqşünaslar Assossiyaslnln və Azərbaycan Respublikası vəkillər kollegiyasının birgə keçirdiyi "Vəkillərin rolu və müstəqilliyinə müqayisəli baxış" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Həmin tədbirdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi Kollegiyasının hakimi İnqilab Nəsirov iştirak etmişdir

## ***5. Ali Məhkəmənin Plenumu***

**Ali Məhkəmənin Plenumunun işi haqqında məlumat**

**2018-ci ildə** Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun **yeddi** iclası keçirilmişdir.

**18yanvar 2018-ci il tarixli** Plenum iclasında Azərbaycan Respublikası Vəkillər Kollegiyasının İxtisas Komissiyasınınhakim üzvləri təyin edilmiş,Azərbaycan Respublikası Ali Məhkəməsinin 2018-ci ilin I yarısına dair iş planı təsdiq edilmişdir.

**9 fevral 2018-ci il tarixli** Plenum iclasında Ali Məhkəmənin kollegiyalarının 2017-cı ildə ədalət mühakiməsinin həyata keçirilməsinə dair məlumatları nəzərə alınmışdır.

**18 aprel 2018-ci il tarixli** Plenum iclasında konkret işlərə baxılmışdır

**25 may 2018-ci il tarixli** Plenum iclasında "Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2017-ci ilin II yarımilliyində təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətlərinin uzadılması barədə təqdimatlara baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsinə dair" ümumiləşdirilmənin nəticələri və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi haqqında və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanun layihələri müzakirə edilmişdir.

**29 iyun 2018-ci il tarixli** Plenum iclasında konkret işlərə baxılmışdır.

Plenum iclasında İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən baxılmış 1 cinayət işi yeni apellyasiya baxışına göndərilmişdir.

Konstitusiya Məhkəməsinin qərarına əsasən altı, əlavə kassasiya şikayətinə əsasən isə 1 mülki və 1iqtisadi mübahisə üzrəişə baxılmışdır.

Konstitusiya Məhkəməsinin qərarına əsasən baxılmış beş mülki iş yeni apellyasiya baxışına göndərilmiş, bir mülki iş üzrə məhkəmə aktları ləğv edilərək işə əlavə kassasiya qaydasında baxılması mümkün hesab edilməmişdir.

Bir mülki iş üzrə əlavə kassasiya şikayəti qismən təmin edilərək, yeni apellyasiya baxışına göndərilmiş, bir iqtisadi iş üzrə əlavə kassasiya şikayəti təmin edilərək, iş üzrə icraata xitam verilmişdir.

Yeni açılmış hallar üzrə 2 ərizə təmin edilərək 2 mülki iş baxılması üçün birinci instansiya məhkəməsinə göndərilmiş, bir iqtisadi mübahisə üzrə iş isə baxışdan çıxarılmışdır.

**31oktyabr 2018-ci il tarixli** Plenum iclasında konkret işlərə baxılmışdır.

Konstitusiya Məhkəməsinin qərarına əsasən beş (üç mülki, iki iqtisad), əlavə kassasiya şikayətinə əsasən 2 mülki və yeni açılmış hallar üzrə isə 1 mülki, 1 iqtisadi mübahisə üzrəişə baxılmışdır.

Konstitusiya Məhkəməsinin qərarına əsasən baxılmış iki mülki, iki iqtisadi mübahisə üzrə iş yeni apellyasiya baxışına, bir mülki iş üzrə isə qərardad ləğv edilərək Ali Məhkəmənin mülki kollegiyasına göndərilmişdir.

İki mülki iş üzrə əlavə kassasiya şikayəti təmin edilərək, yeni apellyasiya baxışına göndərilmişdir.

Yeni açılmış hallar üzrə 2 ərizə təmin edilərək 1 mülki, 1 iqtisadi mübahisə üzrə iş baxılması üçün birinci instansiya məhkəməsinə göndərilmişdir.

**06 noyabr 2018-ci il tarixli** Plenum iclasında konkret işə baxılmışdır.

Bir cinayət işi üzrə şikayətə baxılmasına xitam verilmişdir. Konstitusiya Məhkəməsinin qərarı əsasında üç mülki iş 2019-cu ilə keçmişdir.

***2018-cı ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda Ali Məhkəmə hakimlərinin məruzəsi və sədrliyi ilə baxılmış işlər üzrə qərarların ləğv edilməsi və dəyişdirilməsi barədə***

**M Ə L U M A T**

| № | Hakimlər | Əlavə kassasiya şikayətinə (protestinə) əsasən | Yeni açılmış hallar üzrə | Təqdimata əsasən | Konstitusiya Məhkəməsinin qərarlarına əsasən | Avropa Məhkəməsinin qərarına əsasən | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | *Mülki mübahisələr dair işlər* | | | | | | |
| 1 | Əhməd Nurməmmədov | 1 | | | 1 | | 2 |
| 2 | Qəhrəman Allahverdiyev | | | | 2 | | 2 |
| 3 | Əhməd Əhmədov | | | | 1 | | 1 |
| 4 | Tatyana Qoldman | | | | 1 | | 1 |
| 5 | Ənvər Şadiyev | | | | 1 | | 1 |
| 6 | İslam Əliyev | | 1 | | | | 1 |
| 7 | Aslan Kalbalıyev | | 1 | | | | 1 |
| 8 | Vafəddin İbayev | | | | 1 | | 1 |
| 9 | Əsəd Mirzəliyev | | | | 1 | | 1 |
| 10 | Ənvər Şadıyev | | | | 1 | | 1 |
| 11 | Əhməd Əhmədov | 1 | | | | | 1 |
| 12 | Ələsgər Əliyev | 1 | | | | | 1 |
| | CƏMİ | 3 | 2 | | 9 | | 14 |
| | *İqtisadi mübahisələrə dair işlər* | | | | | | |
| 1 | Azər Hüseynov | 1 | | | | | 1 |
| 2 | İlqar Dadaşov | | | | 1 | | 1 |
| 3 | Rahib Nəbizadə | | | | 1 | | 1 |
| 4 | Azər Hüseynov | | 1 | | | | 1 |
| | CƏMİ | 1 | 1 | | 2 | | 4 |
| | *Cinayət işi* | | | | | | |
| 1 | Gülzar Rzayeva | | 1 | | | | 1 |
| | CƏMİ | | 1 | | | | 1 |

# Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi

Ali Məhkəmənin fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını həyata keçirmək üçün məhkəmə Aparatı və İşlər İdarəsi fəaliyyət göstərir.

Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi öz səlahiyyətlərinə görə birinci kateqoriya dövlət orqanınınməhkəmə aparatıdır, inzibati və yardımçı vəzifə tutan dövlət qulluqçularından ibarətdir.

«Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə ölkəmizin məhkəmə sisteminin inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır.

Ali Məhkəmənin və bütövlükdə məhkəmə sisteminin informasiya sisteminin yaradılması və təkmilləşdirilməsi vahid razılaşdırılmış prinsiplər əsasında qurulmuş, Ali Məhkəmə rəhbərliyinin, aparatı və hakimlərin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi keyfiyyətcə yeni mərhələyə keçidin əsasını qoymuşdur.

İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi, yüksək texnologiyalı məhkəmə infrastrukturu yaradılması məhkəmə hakimiyyətinin fəaliyyətində mütərəqqi rəqəmsal texnologiyaların geniş tətbiq edilməsi Azərbaycan Respublikasının dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamı ilə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən “Elektron məhkəmə” informasiya sistemi yaradılmış və bu sistem məhkəmə sisteminin inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur.

“Elektron hökumət”in tərkib hissəsi olan “Elektron məhkəmə” informasiya sistemi məhkəmə hakimiyyətinin və ədalət mühakiməsinin işini səmərəliləşdirən sistemdir və o, vətəndaşın məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edir.

"Elektron məhkəmə" informasiya sisteminin yaradılması və aparılan genişmiqyaslı məhkəmə-hüquq islahatları ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlıq və operativliyin təmin edilməsinə, məhkəməyə müraciət imkanlarının daha da asanlaşmasına, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsi təmin olunmasına xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin “Elektron məhkəmə informasiya sisteminin yaradılması haqqında” 13 fevral 2014-cü il tarixli Sərəncamının 3-cü bəndində Azərbaycan Respublikası Ali Məhkəməsinə digər dövlət orqanları ilə birgə “Elektron məhkəmə informasiya sisteminin” təşkili, fəaliyyəti və istifadə qaydalarının müəyyən edilməsi tövsiyə edilmişdir. Dövlət başçısının qeyd olunan Sərəncamının icrası məsələləri Ali Məhkəmədə təxirəsalınmadan müzakirə olunmuş, bu sahədə tapşırıqların vaxtında, keyfiyyətli və dolğun həyata keçirilməsi ilə bağlı tədbirlər planının hazırlanması,

zəruri infrastrukturun formalaşdırılması, müvafiq qanunvericilik layihələrinin hazırlanması məqsədilə 13 nəfərdən ibarət xüsusi işçi qrup yaradılmışdır.

Ali Məhkəmədə 2016-cı ildən "Elektron məhkəmə informasiya sistemi" tətbiq edilməyə başlanmış və bu sərəncamdan irəli gələn digər məsələlərin yerinə yetirilməsi üzrə fəaliyyət daha da genişlənmişdir.

"Elektron məhkəmə" informasiya sisteminin tətbiqi aşağıdakı işlərin yerinə yetirilməsini təmin edir:

- Ərizə, şikayət və digər sənədlərin elektron qeydiyyatının aparılması;
- Məhkəmə işlərinin hakimlər arasında iş və icraat növü, habelə kateqoriyalar üzrə avtomatlaşdırılmış qaydada bölgüsünün, hakimlərin iş yükünə mütənasib, aparılması;
- Məhkəmə işlərinin elektron dövriyyəsinin təmin olunması;
- Təyin olunmuş işlər haqqında elektron cədvəllərin avtomatlaşdırılmış qaydada hazırlanması;
- Məhkəmə iclası barədə bildirişlərin sistem tərəfindən hazırlanması və bu barədə məlumatın SMS vasitəsilə göndərilməsi ;
- "Şəxsi kabineti" vasitəsilə elektron imza ilə təsdiqlənmiş elektron iddia ərizə*lərinin* və digər sənədlər*in* verm*əsi*, məhkəmə işinin materialları ilə ətraflı tanış olmaq, hakimin elektron imzası ilə təsdiq edilmiş məhkəmə bildirişlərini və məhkəmə qərarlarını elektron formada əldə ed*ilməsi;*
- "Məhkəmə rüsumlarının elektron ödəniş sistemi"i vasitəsilə günün istənilən vaxtı məhkəmə fəaliyyəti ilə bağlı bütün dövlət rüsumlarının elektron qaydada onlayn ödənilməsi;
- Dövri statistik hesabatlara əsaslanaraq müxtəlif analitik hesabatların hazırlanmasını, məhkəmələrin və hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və onların işinin səmərəliliyinin müəyyən edilməsi("Məhkəmənin nəbzi: İdarəetmədə inqilab" layihəsi)*;*
- *Audio-video yazıları aparan* Az-Femida sistemi *vasitəsi ilə m*əhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılması*;*
- Məhkəmə sədrləri, hakimlər və onların işçiləri üçün işlər üzrə prosessual müddətlərə riayət olunmasına nəzarət edilməsi və müddətlərin bitməsi ilə bağlı xəbərdar*lıqların verilməsi;*
- Hakimlər tərəfindən qəbul edilmiş və elektron imzası ilə təsdiq olunmuş məhkəmə aktlarını*n* hakimlərə, vəkillərə, həmçinin digər hüquqşünaslara məhkəmə aktları ilə tanış olma*q imkanı verən* "Məhkəmə qərarlarının vahid bazası"- informasiya sistemin*də dərc edilməsi;*

Ali Məhkəmədə "Elektron məhkəmə informasiya sistemi"nin tətbiqi nəticəsində hakimlərin və məhkəmə aparatının fəaliyyət səmərəliliyi artmış,vətəndaş məmnunluğu yüksəlmişdir.

2018-ci ildə "Elektron məhkəmə" informasiya sisteminin mövcud funksionallığının daha da təkmilləşdirilməsi və yeni funksionallıqların yaradılması üzrə işlər davam etdirilmişdir.

2018-ci ildə Ali Məhkəmənin maddi-texniki bazasının möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində də müəyyən işlər yerinə yetirilmişdir. Belə ki, "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" Layihəsi çərçivəsində 2018-cı ildə Ali Məhkəmədə aşağıda göstərilən işlər həyata keçirilmişdir:

- Ali Məhkəmənin bütün əməkdaşları yeni müasir kompüterlərlə təmin olunmuş;
- Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən və audio-video yazıları aparan Az-Femida sistemi quraşdırılmış;
- Yeni şəbəkə xəttləri çəkilmiş, müasir şəbəkə avadanlığı alınmış və *məhkəmənin lokal şəbəkəsi yenidən qurulmuşdur;*
- Kommunikasiya sahəsində yeni şəbəkə texnologiyalarından istifadəyə əsaslanan IP-telefoniya sistemi qurulmuş;
- Yeni FET qurğusu (UPS - 200 KVA) istifadəyə verilmişdir;
- Məhkəmə zalları video müşahidə sistemləri ilə təchiz edilmişdir.;
- *Ali Məhkəmənin h*akimlər*i "Elektron imza" sertifikatı ilə təmin edilmişdir*.

Ali Məhkəmənin İnternet Səhifəsində mövcud olan "E-Xidmətlər" bölməsi üzrə təkmilləşmə işləri aparılmış, geniş parametrli axtarış sistemi yaradılmışdır.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 2018-ci il 28 dekabr tarixli 1437-VQD nömrəli Qanununda edilmiş dəyişikliklərə əsasən məhkəmələrin bütün qərarları qəbul olunduğu gündən 1 aydan gec olmayaraq anonimləşdirilməklə elektron qaydada yayılmalı, işlər təsadüfi və avtomatik şəkildə bölüşdürülməli, məhkəmə statistikası "Elektron Məhkəmə" informasiya sistemi vasitəsilə elektron qaydada aparılmalıdır. Qeyd edilən dəyişikliklər Ali Məhkəmə də tətbiq olunur.

"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-cı il 28 dekabr tarixli 1436-VQD nömrəli Qanununda edilmiş dəyişikliklərə əsasən "Elektron Məhkəmə" informasiya sistemi tətbiq olunmuş məhkəmələrdə iqtisadi işlər üzrə məhkəmə icraatı, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu elektron kabinet vasitəsilə həyata keçirilməli, məhkəmə sənədləri (məhkəmə aktları, bildirişlər və məktublar) "Elektron imza" ilə imzalanmalı, imzalanmış sənədlər işdə iştirak edən şəxslərin "elektron kabinet"lərində yerləşdirilməli, məhkəmə iclası barədə bildirişlər SMS vasitəsilə göndərilməli və məhkəmə iclaslarının audio-video yazıları aparılmalıdır.

Qanunun qüvvəyə minməsi ilə əlaqədar Ali Məhkəmənin bütün hakimləri "Elektron İmza" ilə təmin olunmuş, məhkəmə sənədlərinin (məhkəmə aktları və bildirişlər) elektron imza ilə imzalanmasına, e-kabinetdən daxil olan sənədlərin icrasına, məhkəmə iclası barədə bildirişlərin SMS vasitəsilə göndərilməsinə və məhkəmə iclaslarının audio-video yazılarının aparılmasına prosesinə başlanılmışdır.

Qanunda edilmiş dəyişiklərin icrasını tam, dolğun və operativ təşkil etmək məqsədilə Ali Məhkəmədə "Elektron Məhkəmə İnformasiya Sistem"indən istifadə sahəsində bilik və bacarıqlarını artırılması üçün hakimlər, hakim köməkçiləri, katiblik əməkdaşları və məhkəmə iclas katibləri ilə xüsusi təlimlər təşkil olunmuşdur. Təlimlərdə "Elektron İmza"nın tətbiqi, "Elektron Məhkəmə İnformasiya Sistem"ində məhkəmə işlərinin və sənədlərinin elektron idarə olunması, E-kabinetdən istifadə qaydaları,

məhkəmə iclası barədə bildirişlərin sistem tərəfindən hazırlanması və bu barədə məlumatın SMS vasitəsilə göndərilməsi, məhkəmə iclaslarının audio-video yazılarının aparılması məsələləri haqqında geniş məlumat verilmiş və istifadə qaydaları öyrədilmişdir.

Ali Məhkəmə Aparatının strukturunda müvafiq dəyişikliklər edildikdən sonra Aparat və İşlər İdarəsi 2018-ci ildə aşağıdakı tərkibdə fəaliyyət göstərmişdir :

**Ali Məhkəmənin Aparatı**
Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
Beynəlxalq əlaqələr şöbəsi
Qanunvericiliyin təhlili və sistemləşdirilməsi şöbəsi
Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi
İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi
Dövlət qulluğu və kadr məsələləri sektoru
İcra şöbəsi
Ali Məhkəmə Plenumunun katibliyi
Mülki kollegiyanın katibliyi
Inzibati-İqtisadi kollegiyanın katibliyi
Cinayət kollegiyasının katibliyi
Hərbi kollegiyanın katiblyi

**Ali Məhkəmənin İşlər İdarəsi**
İnformasiya Texnologiyaları şöbəsi
Maliyyə-Təsərrüfat şöbəsi
Ali Məhkəmənin Xatirə Muzeyi
Kitabxana
Arxiv
Ali Məhkəmənin mətbəəsi

Azərbaycan Respublikası Ali Məhkəməsi milli qanunvericiliyin və İnsan Hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq hüquq normalarının məhkəmələr tərəfindən tətbiqinin vahid təcrübəsinin yaradılmasını təmin etmək məqsədi ilə öz səlahiyyətləri çərçivəsində mütəmadi olaraq tədbirlər həyata keçirir. Bu məqsədlə ayrı-ayrı sahələr üzrə məhkəmələr tərəfindən baxılan işlər öyrənilərək ümumiləşdirilir, bu növ işlərə baxılarkən yol verilmiş nöqsanlar və qanun pozuntuları aşkar edildikdə ümumiləşdirmənin nəticələri Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda və ya Ali Məhkəmənin rəhbərliyi yanında hakimlərin iştirakı ilə müzakirə olunur.

Belə ki, **Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin** əməkdaşları tərəfindən "2017-ci ilin II yarımilliyində Azərbaycan Respublikasının birinci instansiya məhkəmələri tərəfindən təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi, həbsdə və ev dustaqlığında saxlanılma müddətinin uzadılması ilə bağlı təqdimatlara və həbsin ev dustaqlığı ilə əvəz olunmasına dair vəsatətlərə baxılmasına dair materiallar öyrənilərək ümumiləşdirilmiş, nəticəsi Ali Məhkəmənin **25 may 2018-ci il tarixli** Plenum iclasında müzakirə edilmiş və aşkar edilmiş qanun pozuntuları və nöqsanlarla bağlı birinci və apellyasiya instansiyası məhkəmələrinə icmal məktub göndərilmişdir.

Bundan başqa, "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 10 fevral 2017-ci il tarixli Sərəncamının 13-cü bəndinin icrasını təmin etmək məqsədi ilə 2018-ci ilin I yarımilliyində Azərbaycan Respublikasının birinci instansiya məhkəmələri tərəfindən təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi, həbsdə və ev dustaqlığında saxlanılma müddətinin uzadılması ilə bağlı təqdimatlara baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsi ümumiləşdirilmiş və nəticəsi 18 yanvar 2018-ci il tarixdə Ali Məhkəmənin rəhbərliyi yanında geniş müzakirə edilmiş, ümumiləşdirilmə zamanı aşkar edilmiş qanun pozuntuları və nöqsanlar barədə birinci və apellyasiya instansiyası məhkəmələrinə icmal məktubu göndərilmişdir.

Bundan əlavə, 2015-2017-ci illərdə Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin və onun struktur qurumlarının tərəf kimi iştirak etdiyi işlərə respulikasnını inzibati iqtisadi məhkəmələrində, baxılarkən qanunvericiliyə əməl edilməsi vəziyyəti ümumiləşdirilmiş və aşkar edilmiş qanun pozuntuları və nöqsanlar barədə birinci və apellyasiya instansiyası məhkəmələrinə icmal məktubu göndərilmişdir.

Bundan başqa, məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin əməkdaşları tərəfindən Ali Məhkəmənin rəhbərliyi tərəfindən verilən ayrı- ayrı tapşırıq və göstərişlər də yerinə yetirilmişdir

**Qanunvericiliyin təhlili və sistemləşdirilməsi şöbəsinin** əməkdaşları tərəfindən ötən illərdə olduğu kimi 2018-ci il ərzində də, yanvar ayından başlayaraq şöbənin əməkdaşları tərəfindən şöbənin əsas funksional təyinatından irəli gələn təhlil işinin həyata keçirilməsi, şöbəyə daxil olmuş hüquqi aktların (normativ hüquqi aktlar, normativ xarakterli aktlar, qeyri-normativ aktlar və s.), o cümlədən onlara edilmiş əlavə və dəyişikliklərin sistemləşdirilməsi və kodifikasiyası (nəzarətdə olan qanunvericilik) təmin edilmişdir.

Ali Məhkəməyə daxil olan qanunvericilik aktlarının və onların layihələrinin öyrənilməsi həyata keçirilmiş, bu layihələrlə əlaqədar 150-dən çox məktuba rəy və təkliflər hazırlanaraq müvafiq sorğu edən dövlət orqanlarına (Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və s.) göndərilmişdir.

Bundan başqa, Azərbaycan Respublikası qanunvericiliyində məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı, öyrənilməsi zəruri olan yeni qəbul edilən və baş verən dəyişikliklərə dair hüquqi aktların və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qanunlarının şərhi ilə bağlı qərarlarının Ali Məhkəmənin hakimlərinə və Aparatının işçi heyətinə elektron qaydada göndərilməsi işini təşkil və təmin etmişdir.

Şöbə tərəfindən müvafiq strukturlarla razılaşdırılaraq bir sıra qanun layihələri hazırlanmışdır. Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının mövcud Əsasnaməsinə uyğun olaraq şöbənin fəaliyyət istqamətləri, əməkdaşlarının hüquq və vəzifələri, iş bölgüsü müəyyənləşdirilərək "Əsasnamə"nin ilkin layihəsi hazırlanmışdır.

Ali Məhkəmə Bülletenində məhkəmələrin fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikasının Qanunları, Milli Məclisin Qərarları, Azərbaycan Respublikası Prezidentinin aktları, Ali Məhkəmə Plenumunun qərarları, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair ümumiləşdirmələrin nəticələri, icmal məktubları və məhkəmə fəaliyyəti ilə bağlı əhəmiyyət kəsb edən digər məlumatlar şöbənin əməkdaşları tərəfindən toplanaraq, texniki baxımdan işlənərək Ali Məhkəmənin mətbəəsinə təqdim edilmiş və vaxtında çap edilməsinə nəzarət həyata keçirilmişdir.

Hüquqi aktların Qanunvericiliyin təhlili və sistemləşdirilməsi şöbəsi tərəfindən sistemləşdirilməsi ilə əlaqədar olaraq Ali Məhkəmənin kollegiya sədrlərinin, hakimlərinin, Aparatın rəhbərliyinin və struktur bölmələrinin əməkdaşlarının müraciətlərinə əsasən şöbənin əməkdaşları öz növbəsində göstərilən şəxsləri müvafiq normativ hüquqi aktlarla təmin etmişdirlər.

İnzibati Xətalar Məcəlləsinə əlavə edilməsi təklif edilən 431-ci maddəyə dair təklif edillən Qanun layihəsinin müzakirəsi ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 10 dekabr 2018-ci il tarixdə baş tutan iclasda Ali Məhkəməni şöbənin əməkdaşı təmsil etmişdir.

Yuxarıda qeyd edilənlərlə yanaşı, şöbənin əməkdaşları Əsasnamədə nəzərdə tutulmuş funksiyalarının icrasından başqa, Ali Məhkəmənin sədrinin və digər rəhbər şəxslərinin tapşırıqlarına əsasən digər vəzifələrin və işlərin yerinə yetirilməsinə də, cəlb olunmuşlardır.

**İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin** əməkdaşdaoı ötən illərdə olduğu kimi 2018-ci il ərzində də yanvar ayından başlayaraq hər həftənin ikinci günü "İnsan hüquqları üzrə Avropa Məhkəməsinin" təcrübəsinin öyrənilməsi məqsədilə seminar-məşğələlərin təşkil edilməsi, Azərbaycan üçün aktual olan İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarından Ali Məhkəmənin müvafiq kollegiya sədrləri və hakimləri ilə razılaşdırılaraq mövzuların seçilməsi, seçilmiş qərarlar üzrə seminar-məşğələ cədvəllərinin tərtib edilməsi şöbənin əməkdaşları tərəfindən təmin edilmişdir. Məruzə edilmiş qərarların surətlərinin Respublikanın apellyasiya və birinci instansiya məhkəmələrinə göndərilməsi həyata keçirilmiş və həmin qərarların Ali Məhkəmənin internet səhifəsində "Avropa Məhkəməsinin qərarları" bölməsində yerləşdirilməsi təmin edilmişdir.

Avropa Məhkəməsinin bir sıra qərarları Azərbaycan dilinə tərcümə edilərək hakimlərə təqdim edilmişdir.

2018-ci il ərzində Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən qəbul edilmiş qərarlar daim izlənilərək, yeniliklər və Azərbaycana qarşı qəbul edilmiş qərarlar barədə Ali məhkəmənin hakimlərinə və əməkdaşlarına mütəmadi olaraq məlumat verilmişdir.

Bundan əlavə Ali Məhkəmənin hakimlərinin icraatında olan işlərlə əlaqədar Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq presedentlərinin tapılması, onların tərcümə olunması və hakimlərə təqdim olunması İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi tərəfindən təşkil edilmişdir.

Aidiyyati müraciətlərə, o cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından kommunikasiyada olan işlərlə əlaqədar daxil olmuş sorğulara, cavablar hazırlanmışdır. Ümumilikdə Avropa Məhkəməsinə ünvanlanmış 107 ərizə üzrə suallar cavablandırılmışdır.

Həmçinin 2018-ci ildən Azərbaycan Respublikası Ali Məhkəməsi Avropa İnsan Hüquqları Məhkəməsinin "Yuxarı Məhkəmələr Şəbəkəsinin üzvüdür". Əməkdaşlıq çərçivəsində şöbənin müdiri K.Əliyeva 8 iyun 2018-ci il tarixində Şəbəkənin 2-ci Forumunda iştirak etmişdir. Şəbəkənin milli qanunvericiliklə bağlı 4 sorğularına cavab verilmişdir.

Bununla yanaşı şöbənin əməkdaşları Əsasnamədə nəzərdə tutulmuş funksiyalarının icrasından başqa digər vəzifələrin və tapşırıqların yerinə yetirilməsinə də cəlb olunmuşlar, o cümlədən rəhbərliyin tapşırılığı əsasnda müxtəlif təhlillər aparmışlar.

**Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinə** 2018-ci ildə Respublikanın təşkilatlarından və vətəndaşlardan **25536** müraciət (kassasiya şikayəti, kassasiya protesti, əlavə kassasiya şikayəti, ərizə, şikayət və sair) daxil olmuşdur. 2018-ci ildə daxil olmuş müraciətlərin sayı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1414 (5,8%) müraciət artmışdır.

Respublikanın təşkilatlarından və vətəndaşlardan daxil olmuş 9296 müraciət (25536 müraciətə aid edilməklə) prosessual sənədlər olduğu üçün (kassasiya şikayəti, kassasiya protesti, kassasiya şikayətinə etiraz, kassasiya şikayətinə əlavə, vəsatət, izahat və sair) icraatda olan işlərə əlavə edilmiş, **614** prosessual müraciət (əlavə kassasiya qaydasında şikayət, protest, məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizə və sair) plenumun icraatı qaydasında baxılmışdır. Digər 15626 müraciətə isə Ali Məhkəmənin rəhbərliyi və aparatı tərəfindən baxılmışdır.

Ali Məhkəmə Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin məsləhətçiləri tərəfindən həftənin bütün iş günləri saat 09:00-dan 18:00-dək vətəndaşların qəbulu həyata keçirilir. 2018-ci ildə **1185 nəfər qəbul olunmuş,** şikayətləri dinlənilmiş və onlara müraciət etmə qaydaları və digər hüquqları izah olunmuşdur.

Ali Məhkəmənin sədri və kollegiya sədrlərinin qəbulu təsdiq olunmuş cədvəl üzrə müəyyən olunmuş günlərdə və saatlarda aparılmışdır. Qəbul barədə ətraflı məlumat məhkəmənin internet səhifəsində (azərbaycan, rus və ingilis dillərində) yerləşdirilmişdir.

Arayışın əhatə etdiyi dövr ərzində Ali Məhkəmənin sədri və kollegiya sədrləri tərəfindən **161** nəfər qəbul olunmuşdur.O cümlədən:

-Ali Məhkəmənin sədri-75 nəfər

-Mülki kollegiyanın sədri-27 nəfər

-Cinayət kollegiyasının sədri-22 nəfər

-İnzibati-İqtisadi kollegiyanın sədri-20 nəfər

-Hərbi kollegiyanın sədri-17 nəfər qəbul edilmişlər

# Ali Məhkəmənin 2018-ci ildə beynəlxalq əlaqələri.

Azərbaycan Respublikası Ali Məhkəməsinin iki tərəfli beynəlxalq əlaqələrin genişləndirilməsinə mühüm diqqət yetirməsini nəzərə alaraq hüquqi əməkdaşlığın dərinlənməsi istiqamətində səmərəli addımlar atılmış və bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bununla əlaqədar olaraq şöbənin əməkdaşları aşağıda göstərilən görüş və səfərləri təşkil etmişdir:

**2018-ci il:**

**Yanvarın 26-da** Ali Məhkəmənin sədri Ramiz Rzayev Fransanın Strasburq şəhərində Avropa İnsan Hüquqları Məhkəməsinin məhkəmə ilinin açılışına həsr olunmuş təntənəli tədbirdə və "Məhkəmə hakimiyyətinin nüfuzu" mövzusunda keçirilən iclasda iştirak etmişdir.

**martın 5-6 tarixlərində** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev, baş prokurorun müavini Namiq Əsgərov və hər iki dövlət qurumunun əməkdaşlarından ibarət nümayəndə heyəti Türkiyə Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin dəvəti ilə Ankarada Türkiyə Ali Məhkəməsinin yaradılmasının 150 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmişlər.

**aprelin 3-də** ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Ədliyyə naziri Abdulhamit Gülün başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**mayın 1-də** BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycan üzrə nümayəndəsi Furio De Angelis Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**mayın 27-30 tarixlərində** Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi kollegiyasının sədri Hikmət Mirzəyevin rəhbərlik etdiyi nümayəndə heyəti Litva Respublikasında keçirilən Mərkəzi və Şərqi Avropa ölkələrinin Ali Məhkəmə sədrlərinin 8-ci Konfransında iştirak etmişdir.

**iyunun 8-də** Avropa İnsan Hüquqları Məhkəməsində (Strasburq, Fransa) Yuxarı Məhkəmələr Şəbəkəsi əlaqələndirici şəxslərinin 2-ci Forumu keçirilmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsini əlaqələndirici şəxsi, İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kəmalə Əliyeva təmsil etmişdir.

**iyunun 13-də** ölkəmizdə səfərdə olan Dünya bankının Avropa və Mərkəzi Asiya Regionunun Dövlət İdarəçiliyi üzrə Praktika Meneceri Daniyel Boysun başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**-iyunun 22-də** ölkəmizdə səfərdə olan Əlcəzair Xalq Demokratik Respublikasının Ədliyyə naziri Əl - Tayyib Louhun başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**-oktyabrın 11-12 tarixlərində** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Türkiyə Kassasiya Məhkəməsinin sədri İsmail Rüştü Ciritin dəvəti ilə İstanbul şəhərində keçirilən IV Yuxarı instansiya məhkəmələrinin beynəlxalq sammitində iştirak etmişdir.

Sammitdə Ali Məhkəmənin sədri “Məhkəmələrdə şəffaflığın təmin olunması” mövzusunda çıxış etmişdir.

Sammitin yekununda İstanbul Bəyannaməsində əks olunan prinsiplərin səmərəli icrası üçün tədbirlər planı müəyyənləşdirilmişdir.

**-noyabrın 14-də** ölkəmizdə səfərdə olan Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Departamentinin İnsan Hüquqları məsələləri üzrə direktoru Kristof Poirelin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür

**-noyabrın 15-də** ölkəmizdə səfərdə olan bir sıra ölkələrin vəkillik sahəsinin rəhbərləri Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

**-dekabrın 18-də** Azərbaycan Hüquqşünaslar Konfederasiyasının və Türkiyə Hüquq Platformasının birgə təşkilatçılığı ilə Bakıda keçirilən II AvrasiyaHüquq Qurultayının bir qrup nümayəndəsi Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

## Ali Məhkəmənin sədri BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycan üzrə nümayəndəsi Furio De Angelis ilə görüşmüşdür.



2018-ci il mayın 1-də BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycan üzrə nümayəndəsi Furio De Angelis Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə didərgin və vətəndaşlığı olmayan şəxslərin himayəsi sahəsində məhkəmə orqanları ilə BMT-nin Qaçqınlar qzrə Ali Komissarlığı arasında əməkdaşlığın möhkəmlənməsinə yönələn ideya və perspektivlər müzakirə olunmuşdur.

Milli qanunvericilikdə və beynəlxalq hüquqda nəzərdə tutulan hüquqların həyata keçirilməsi, o cümlədən sənədlərlə təmin edilmə və notariat xidmətlərindən istifadə, ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

## Ali Məhkəmənin sədri Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi üzrə baş departamentinin İnsan Hüquqları məsələləri üzrə direktoru ilə görüşmüşdür.



2018-ci il noyabrın 14-də ölkəmizdə səfərdə olan Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi üzrə baş departamentinin İnsan Hüquqları məsələləri üzrə direktoru Kristof Poirelin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə Ali Məhkəmənin sədri Azərbaycanın məhkəmə sistemi və Ali Məhkəmənin fəaliyyəti barədə qonaqlara ətraflı məlumat vermişdir. Ali Məhkəmənin sədri İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə işgüzar əlaqələrdən söhbət açaraq beynəlxalq hüquqi aktlara, xüsusən də "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəalarına, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin president hüququna istinad olunduğunu bildirmişdir. Qeyd etmişdir ki, hər həftə Ali Məhkəmədə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qəbul etdiyi qərarlarla bağlı seminarlar keçirilir. Məhkəmə sisteminə hakim vəzifəsinə seçim prosedurları Avropa standartlarına uyğunlaşdırılmışdır və bu təqdir olunur. Azərbaycanda elektron məhkəmə sisteminin yaradılması ilə bağlı işlər davam etdirilir.

Ali Məhkəmənin sədri Avropa Şurasının üzvü olan ölkələrlə məhkəmə-hüquq sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verildiyindən danışmış, bu əməkdaşlığın ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf etdiyini diqqətə çatdırmışdır.

Ali Məhkəmənin sədri Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi üzrə baş departamentinin İnsan Hüquqları məsələləri üzrə direktoru Kristof Poireli və nümayəndə heyətinin üzvlərini maraqlandıran suallara cavab vermişdir.

# Ali Məhkəmənin İnternet səhifəsi




Ali Məhkəmənin internet səhifəsi Azərbaycan Respublikası Prezidentinin yanında Xüsusi Dövlət Mühafizə Xidmətinin serverlərində, www.supremecourt.gov.az ünvanında yerləşdirilmişdir. Ali Məhkəmənin yeni internet səhifəsi üç dildə – azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdir.

Ali Məhkəmənin internet səhifəsi 5 əsas bölmədən ibarətdir. Burada Azərbaycan Respublikası haqqında məlumatlar, Ali Məhkəmənin strukturu, Qanunvericiliklə bağlı sənədlər, Məhkəmə sənədləri və qərarları, Avropa İnsan Hüquqları məhkəməsinin qərarları, Ali Məhkəmədə keçirilmiş beynəlxalq konfrans materialları, hakimlərin intizam məsuliyyətinə cəlb olunması barədə məlumat, işlərin təyinatı və baxılmış işlərin nəticələri, məhkəmə aidiyyəti, vətəndaşların, ərizə və müraciətlərin qəbulu, arayışlar və mətbuat xidməti haqqında məlumat almaq olar.

Bundan başqa, internet səhifəsində Ali Məhkəmənin rəhbərliyinin və hakimlərinin xarici dövlətlərə səfərləri, ölkədaxili tədbirlərdə iştirakı, habelə, Ali Məhkəmənin təşkil etdiyi tədbirlər haqqında məlumatlarla ətraflı tanış olmaq mümkündür.

Ali Məhkəmənin İnternet səhifəsinin “E-Xidmətlər” bölməsində məhkəməyə daxil olmuş işlər barədə operativ məlumatlar, təyin olunmuş işlər barədə gündəlik və həftəlik məlumatlar dərc olunur, məhkəmə qərarlarının axtarışı üçün xüsusi interfeys yaradılmış, “online müraciət” və qəbul bəndləri əlavə edilmiş, həmçinin hər bənd üzrə istifadəçi üçün təlimat dərc edilmişdir.



2018-cı il ərzində Ali Məhkəmənin internet səhifəsinə daxil olan adamların sayı 219437, daxil olmaların sayı 271652, müraciətlərin sayı isə 673244 dəfə olmuşdur ki, bu da ötən ilə nisbətən orta hesabla 1.13, 1.18 və 1.10 dəfə artıqdır (Qrafik 1).




2012-ci ildən bəri sayta müraciətlərin dinamikasından göründüyü kimi (Qrafik2), müraciətlərin sayı orta hesabla təqribən10.4% artmış və 673244-ə çatmışdır.

2018-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə dünyanın 100-dən çox ölkəsindən 271652 nəfər daxil olmuşdur ki, bunların 244034-ü Azərbaycandan, 15705-i ABŞ-dan, 3015-i Rusiyadan, 1253-ü Türkiyədən, 739-u Ukraynadan, 565-i Almaniyadan, 421-i İngiltərədən, 378-i Gürcüstandan, 319-u Fransadan, 307-si Belarusdan və 4916-ı isə digər ölkələrdən olmuşdur.

Qrafiklərdə müraciətlərin təkrarlanma və davamlılığa görə paylanması nümayiş edilir. Üçüncü qrafikdən göründüyü kimi bütün müraciətlərin 48.54%-i bir, 21.31%-i iki, 9.83%-i üç, 5.00%-i dörd, 3.26%-i beş və 12.06%-i altı dəfə və daha çox təkrar olmuşdur.




Dördüncü qrafikdə müraciətlərin davamlılığı nümayiş etdirilir. Buradan göründüyü kimi bütün müraciətlərin 72.17%-i 1 dəqiqəyə qədər, 10.13%-i 1-3 dəqiqə, 11.57%-i 3-10 dəqiqə, 5.75%-i 10-30 dəqiqə, 0.37%-i isə 30 dəqiqədən artıq davam etmişdir.

# Ali Məhkəmənin bülleteni

Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi nəşri olan bülleten 2003-cü ilin yanvar ayından nəşr olunur.

İldə dörd dəfə nəşr olunan bülletendə məhkəmə fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Ali Məhkəmə Plenumunun qərarları, Ali Məhkəmənin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlar, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair Ali Məhkəmədə aparılan ümumiləşdirmənin nəticələri, icmal məktubları, Ali Məhkəmənin beynəlxalq əlaqələri, Ali Məhkəmə sədrinin görüşləri, məhkəmə təcrübəsi üçün əhəmiyyət kəsb edən məhkəmə qərarları və məhkəmə fəaliyyəti ilə bağlı digər maraqlı materiallar, onun Xüsusi Buraxılışında isə müstəsna əhəmiyyətə malik olan məlumat və sənədlər dərc olunur.

2018-ci ildə Ali Məhkəmənin dörd bülleteni çap olunmuşdur. Həmin bülletenlərdə Azərbaycan Respublikanın əməkdar hüquqşünası Müzəffər Ağazadənin "Ali Məhkəmə Plenumunun müzakirəsinə çıxarılmalı olan bəzi məsələlər haqqında", "Son amnistiya aktlarının fərqli xüsusiyyətləri", "Cinayət Məcəlləsinin 56-cı maddəsindəki anlaşılmazlıqlar", "Cinayət mühakimə icraatında mülki iddianın verilməsi ilə bağlı yaranan problemlər", BDU Hüquq fakültəsinin dosenti, h.ü.f.d. Vəkillər Kollegiyasının üzvü Bəhruz Məhərrəmovun "Azərbaycan Respublikasında "Üzr istənilməsi"öhdəliyinə dair məhkəmə təcrübəsinin beynəlxalq informasiya hüququnun prinsipləri fonunda təhlili" Ali Məhkəmənin hakimi Vəfaddin İbayevin "Çində on beş gün", Azərbaycan Respublikası Baş Prokurorluğu Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Təbriz Elşən oğlu Musayevin "Etirazedilməli olan hal şahidinin iştirakı ilə aparılmış istintaq hərəkəti ilə əldə edilmiş sübutların mümkünlüyü" məqalələri, beynəlxalq əlaqələrə və görüşlərə həsr olunmuş məlumatlar və aktuallıq kəsb edən digər tədbirlər öz əksini tapmışdır.

# Ali  Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi və onun maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

Ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun həyata keçirilməsi üçün ölkə Prezidenti tərəfindən məhkəmələrə hər cür şərait yaradılmış və bu proses indi də davam etdirilir.

Məhz bunun nəticəsidir ki, dövlət büdcəsinin xərclər hissəsində məhkəmə hakimiyyətinin, o cümlədən, Azərbaycan Respublikası Ali Məhkəməsinin  saxlanılması xərclərinin həcmi ilbəil artırılır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ali Məhkəməsi hakimlərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 19 oktyabr 2010-cu il tarixli sərəncamı bu sahəyə diqqətin əyani nəticəsidir.

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi üçün  2018-ci ildə ayrılan illik büdcə vəsaiti (dürüstləşmə ilə) **8.972.364** manat, o cümlədən, əmək haqqı fondu **6.129.546** manat müəyyən edildiyhalda,  2019-ci ildə Ali Məhkəməyə ayrılan büdcə vəsaiti **10.699.205** manat müəyyən edilmişdir ki, bu da 2018-ci ildə ayrılan büdcə vəsaitindən **1.726.841**  manat çoxdur.

# Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası

Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə birbaşa əlaqəsinin təmin edilməsi, lazım gəldikdə Ali Məhkəmədə baxılmış mülki və cinayət işləri haqqında onlara operativ qaydada məlumat vermək Ali Məhkəmənin hakimləri Mirzəliyev Əsəd Abdulla oğluna və Kərimov Fərhad Abdulkərim oğluna həvalə olunmuşdur.

Mülki işlərlə əlaqədar məlumat almaq üçün hakim Əsəd Mirzəliyevlə **493-09-91** nömrəli, cinayət işləri ilə əlaqədar isə hakim Fərhad Kərimovla **493-22-03** nömrəli telefonlarla birbaşa əlaqə saxlamaq olar.

Bundan əlavə, həmin hakimlərlə Ali Məhkəmənin contact@ supremecourt. gov.az  e-mail ünvanı vasitəsilə də əlaqə saxlamaq olar.

Ali Məhkəmədə keçirilən tədbirlər haqqında müvafiq məlumatları **493-18-37** nömrəli telefonla Ali Məhkəmənin  mətbuat katibi Məmmədli Allahverdi Məhərrəm oğlundan almaq olar.

*Məlumat kitabçası Ali Məhkəmənin əməkdaşları tərəfindən hazırlanmışdır.*

*Redaktor: Allahverdi Məmmədli*

*Tiraj – 200 nüsxə*